№ 28 (971) 13-19 iyul 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilә | Qəzet 1999-cu ildən çıxır

# AZƏRBAYCANDA BÜTÜN SOSİAL-İQTİSADİ MƏSƏLƏLƏR UĞURLA ÖZ HƏLLİNİ TAPIR



İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açmışdır.

**Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqindən:**

- Bütövlükdə, Azərbaycan 2017-ci ilin birinci yarısında uğurla inkişaf edib, qarşıda duran bütün vəzifələr icra olunub, ölkəmiz daha da güclənib və beynəlxalq əlaqələrimiz daha da dərinləşib.

Əfsuslar olsun ki, 2017-ci ildə dünyada çox təhlükəli meyillər daha da güclənir. Həm bizim bölgəmizdə, həm dünyada narahatedici məqamlar kifayət qədər çoxdur. Müharibələr, münaqişələr, qanlı toqquşmalar, böhranlar - əfsuslar olsun ki, bugünkü beynəlxalq mənzərənin əlamətləri bunlardır. Azərbaycan isə uğurla inkişaf edir. Azərbaycanda sabitlik möhkəmlənir. Sabitliyin mənbəyi Azərbaycan xalqıdır, xalq-iqtidar birliyidir.

Azərbaycanda bütün sosial-iqtisadi məsələlər uğurla öz həllini tapır, ölkəmizdə təhlükəsizlik tədbirləri yüksək səviyyədədir. Azərbaycan bu bölgədə və dünyada sabitlik məkanı kimi tanınır. Əlbəttə ki, belə bir şəraitdə həm investisiyaların qoyuluşu üçün maraq göstərilir, eyni zamanda, xalqımız rahat yaşayır, əhalimizin rifah halı yaxşılaşır. Azərbaycan xalqı təhlükəsizlik, əmin-amanlıq şəraitində öz gələcəyini qurur.

Bu ilin altı ayında bizim beynəlxalq əlaqələrimiz daha da fəallaşıb. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan ölkə kimi tanınır. Dostlarımızın sayı artır və beynəlxalq təşkilatlarda da bizim fəaliyyətimiz çox müsbətdir. Mən ilin altı ayında 10 xarici səfər etmişəm - beş Avropa ölkəsinə, beş müsəlman ölkəsinə. Davos və Münxendə keçirilən dünyanın aparıcı iqtisadi, siyasi və təhlükəsizlik konfranslarında Azərbaycan ləyaqətlə təmsil olunmuşdur. Eyni zamanda, mənim Avropa Komissiyasına çox uğurlu səfərim olubdur, Fransaya və Polşaya rəsmi səfərlər etmişəm. Müsəlman ölkələrinə gəldikdə isə, İrana, Qətərə, Pakistana, Səudiyyə Ərəbistanına, Türkiyəyə səfərlər etmişəm. Azərbaycan səfər etdiyim bütün bu ölkələrlə əlaqələrini daha da genişləndirir, möhkəmləndirir. Bu səfərlərimin coğrafiyası əslində bizim xarici siyasətimizin nə qədər düzgün və milli maraqlara xidmət edən siyasət olduğunu bir daha təsdiqləyir. Bununla bərabər, bu ilin birinci yarısında doqquz xarici dövlət və hökumət başçısı Azərbaycana səfər edibdir. Bu da çox gözəl göstəricidir.

Bu il Azərbaycanda bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Əlbəttə ki, mötəbər beynəlxalq tədbirlərin keçirilməsi hər bir ölkə üçün önəmlidir. Bu tədbirlər əslində ölkəyə olan münasibəti, hörməti əks etdirir. Azərbaycanda keçirilən mötəbər tədbirlər ən yüksək səviyyəli tədbirlərdir. Onların arasında əsas tədbirləri qeyd etmək istərdim. Bu il Bakıda V Qlobal Forum keçirilibdir. Bu, artıq dünya miqyasında çox dəyərli, səviyyəli bir tədbirdir. Əgər Davosda daha çox iqtisadi, Münxendə təhlükəsizlik məsələləri müzakirə olunursa, Qlobal Bakı Forumunda daha çox siyasi və eyni zamanda, bütün digər məsələlər müzakirə edilir. Forumda bir neçə ölkənin dövlət və hökumət başçıları, tanınmış siyasətçilər, ictimai xadimlər iştirak etmişlər. Qlobal Bakı Forumu artıq dünya xəritəsində özünəlayiq yerini tuta bilmişdir.

**Bu il IV Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Bu da bizim təşəbbüsümüzlə bir neçə il bundan əvvəl ilk dəfə keçirilmiş tədbirdir. Builki tədbirdə Azərbaycanla bərabər dünyanın altı aparıcı beynəlxalq təşkilatı Forumun təşkilatçısı kimi çıxış etmişdir.** Forumda aparılmış müzakirələr və qəbul edilmiş qərarlar əlbəttə ki, multikulturalizm dəyərlərinin möhkəmlənməsinə xidmət edir. Azərbaycan Forum çərçivəsində bir daha multikulturalizmin mərkəzlərindən biri kimi qeyd olundu. Əlbəttə ki, belə tədbirlərin ölkəmizdə keçirilməsi həm bizim beynəlxalq nüfuzumuzu artırır və eyni zamanda, bu tədbirlər dünyada gedən müsbət proseslərə öz töhfəsini verməkdədir.

**Bu il 24-cü Xəzər neft-qaz sərgi və konfransı keçirilmişdir. Bu sərgi və konfrans dünya miqyasında enerji sektorunda seçilmiş tədbirlərdən biridir. Bunun ən gözəl göstəricisi ondan ibarətdir ki, bu tədbirə Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Tramp məktub göndərmişdir. Mənə ünvanlanan məktub əlbəttə ki, Xəzər neft-qaz sərgi və konfransının əhəmiyyətini artırır, eyni zamanda, Amerika Birləşmiş Ştatları tərəfindən Azərbaycanın icra etdiyi uğurlu enerji layihələrinə göstərilən növbəti dəstəkdir. Əlbəttə ki, belə xoş münasibət Amerika-Azərbaycan əlaqələrinin uğurlu inkişafı üçün yeni zəmin yaradır. Bir neçə gün bundan əvvəl Amerikanın dövlət katibi ilə İstanbulda görüşüm bir daha bizim strateji əlaqələrimizi təsdiqlədi və bu gün Amerika-Azərbaycan əlaqələri yeni mərhələyə qədəm qoyur.**

Ölkəmizdə keçirilmiş bu tədbirlər, - mən ancaq əsas tədbirləri qeyd etdim, - əslində, Azərbaycanın dünyadakı rolunu, inkişafını, ölkəmizə beynəlxalq aləmin, aparıcı dövlətlərin hörmətini, rəğbətini göstərir.

Bizim xarici siyasətimizin əsas məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Əfsuslar olsun ki, bu ilin birinci yarısında bu istiqamətdə - danışıqlar istiqamətində heç bir nəticə əldə edilməmişdir. Bununla bərabər, hesab edirəm ki, 2017-ci ildə münaqişənin həlli ilə bağlı önəmli hadisələr də baş vermişdir və Azərbaycanın haqlı mövqeyi daha da böyük dəyər qazanmışdır.

Mən bir neçə faktı Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırmaq istərdim. İlk növbədə, bu il qondarma separatçı rejim Ermənistanın siyasi rəhbərliyinin təhriki ilə Dağlıq Qarabağda növbəti qondarma, qanunsuz, dırnaqarası referendum keçirmişdir. Bu "referendum"un keçirilməsi əslində onların böyük səhvidir, daha doğrusu, axmaqlığıdır. Onların bir qədər ağlı olsaydı, heç vaxt buna getməzdilər. Çünki bəri başdan bəlli idi ki, dünya birliyi bu qondarma tədbiri tanımayacaq. Belə də oldu. Minsk qrupu bəyanat verdi, onun həmsədrləri – Amerika, Fransa, Rusiya "referendum"u tanımadılar. Avropa İttifaqı referendumu tanımayıb. Qonşu ölkələr – İran, Gürcüstan "referendum"u tanımayıb. Digər ölkələr də oxşar bəyanatlarla çıxış etdilər. **Bu qondarma "referendum"un tanınmaması Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu bir daha təsdiqləyir. Bütün dünya və münaqişənin həlli ilə bilavasitə məşğul olan ölkələr bu münasibətləri ilə bir daha təsdiq edirlər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu, həqiqətdir, bu, tarixi həqiqətdir və əlbəttə ki, bu həqiqət bir daha qeyd olundu. Bu, Ermənistanın növbəti biabırçılığı idi.**

Dünən Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşüblər. Danışıqlar prosesi bərpa edilib, heç bir şərt Azərbaycan tərəfindən qəbul edilməyib, danışıqlar prosesi qeyd-şərtsiz bərpa edilibdir. Bu, bizim mövqeyimizdir, biz həmişə demişik ki, belə olmalıdır. Bu, Minsk qrupunun həmsədr ölkələrinin də mövqeyidir. 2016-cı il martın sonunda Vaşinqtonda nüvə sammitində mən də iştirak edirdim, Ermənistan prezidenti də. O vaxt Ermənistan prezidentinə təzyiqlər göstərilirdi ki, məsələ tezliklə öz həllini tapsın. Da-



nışıqları pozmaq üçün aprel hadisələri törədildi, bizə qarşı təxribat törədildi. Azərbaycan Ordusu düşmənə layiqli cavab verdi. Bu cavab nəticəsində bu gün bizim bayrağımız Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında dalğalanır.

O vaxtdan bu günə qədər danışıqlar aparılmırdı və Ermənistana təzyiq artırdı. Danışıqlara başlamamaq üçün onlar keçən ay növbəti hərbi təxribat törətdilər, bir əsgərimiz həlak oldu. Yenə də Azərbaycan Ordusu onları cəzalandırdı. Azərbaycan Ordusunun zərbəsi nəticəsində bir çox işğalçı məhv edildi. Növbəti təxribat bu ayın 4-də Füzuli rayonunun Alxanlı kəndində baş verdi. Bu, hərbi cinayətdir. Bu, erməni faşizminin təzahürüdür və bu cinayətə görə Ermənistan öz cavabını almışdır. Bu, misli görünməmiş vəhşilikdir. Balaca Zəhranın və onun nənəsinin öldürülməsi erməni faşizminin eybəcər sifətini bütün dünyaya göstərdi.



Bu cinayət cavabsız qalmadı. Azərbaycan ictimaiyyəti də bunu bilir. Baxmayaraq ki, Ermənistan öz itkilərini həmişə gizlətmək istəyir. Amma bütün itkiləri gizlədə bilmir. Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirdi. Bu zərbələr nəticəsində bir çox işğalçı məhv edildi. Balaca Zəhranın, onun nənəsinin qanı yerdə qalmadı. Həmişə də belə olacaq. Nəyə hesablanmışdır bu cinayət? İlk növbədə, bu, Ermənistan siyasi rəhbərliyinin xislətini göstərir. Xocalı qatilindən, uşaq, qadın qatilindən başqa bir şey gözləmək mümkün deyil. Bu, erməni faşizmidir, bütün dünya da bunu belə qəbul etməlidir. Bu, birincisi.

**İkincisi, iyulun 11-də xarici işlər nazirlərinin görüşü nəzərdə tutulmuşdu. Artıq bu tarix bəlli idi, sadəcə olaraq, son günlərdə bu tarix açıqlandı. Bu təxribatı törətməklə onlar hesab edirdilər ki, Azərbaycan danışıqlardan imtina edəcək. Biz imtina edə bilərdik, əgər onlara layiqli cavab verməsəydik. Cavablarını verdik, işğalçıları məhv etdik, onları cəzalandırdıq, sonra da danışıqlara getdik.**

Bax, budur Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan əsas məsələlər. Ona görə mən deyirəm ki, bu il Azərbaycan mövqeləri daha da möhkəmləndi. Alxanlı kəndində törədilmiş hərbi cinayətin dünyada böyük əks-sədası var. Yəni, Ermənistan gördü ki, Azərbaycan böyük beynəlxalq dəstəyə malikdir. Bizim bütün qurumlarımız çox fəal, operativ işlədilər, bu məlumatı dünya ictimaiyyətinə çatdırdılar. Həm dövlət qurumları, səfirliklər, diaspor təşkilatları, ictimai təşkilatlar, bizim xaricdəki dostlarımız öz səslərini ucaltdılar və Ermənistana, onun faşist xislətli siyasi rəhbərliyinə dünyada nifrət daha da artdı.

O ki qaldı, danışıqların perspektivlərinə, bir daha demək istəyirəm ki, danışıqlar bərpa edilir, bu, müsbət haldır. İndi əsas vəzifə tezliklə məsələni həll etməkdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Əminəm ki, belə də olacaq. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq.

Həmişə olduğu kimi, biz bu il də hərbi potensialımızın gücləndirilməsinə böyük diqqət göstərmişik. Yeni silahlar, ən müasir texnika alınır. Özü də biz texnikanı, silahları, ən müasir avadanlığı müxtəlif ölkələrdən alırıq və onların bir hissəsi artıq gəlir, bir hissəsi isə gələcəkdir. Bu, bizim hərbi potensialımızı daha da artıracaq. Bu günün özündə biz işğal edilmiş torpaqlarda istənilən hədəfi məhv edə bilərik. Amma biz öz hərbi potensialımızı daha da gücləndirməliyik. Buna ehtiyac var və buna bizim imkanlarımız çatır. Yoxsul Ermənistandan fərqli olaraq, biz bütün hərbi texnikanı öz hesabımıza alırıq və Azərbaycanda da bu texnikanı istehsal edirik. Bu il Azərbaycanda iki yeni hərbi zavod fəaliyyətə başlamışdır. Bu gün Azərbaycan həm özünü böyük dərəcədə silah-sursatlarla təmin edir, eyni zamanda, xarici ölkələrə də ixrac edir.

**Məcburi köçkünlərin problemləri həmişəki kimi bu il də diqqət mərkəzində olubdur. Son illər yüzə yaxın qəsəbə salınmışdır. Ancaq onların arasında bu il açdığımız Cocuq Mərcanlı qəsəbəsi xüsusi yer tutur. Bu, tarixi hadisədir. Bu, bizim şanlı tariximizə qızıl hərflərlə yazılan hadisədir. Biz işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndini bərpa etdik. Orada 50 ev, məktəb, Şuşa məscidinin bənzəri olan məscid tikilib, yol çəkilib, bütün infrastruktur yaradılıb. Ailələr oraya qayıdır. Açılışdan sonra mən növbəti Sərəncam imzaladım. Növbəti 100 evin, tibb məntəqəsinin və digər lazımi obyektlərin tikintisi üçün də vəsait ayrılmışdır. Əminəm ki, gələcək aylarda Cocuq Mərcanlı kəndi tam bərpa ediləcək və bu kəndə tam həyat qayıdacaqdır.**

Digər layihələr icra edilir. Tərtər rayonunda böyük şəhərcik salınır. Sumqayıt və Bakı şəhərlərində həm yeni şəhərciklər tikilir, həm köçkünlər üçün mənzillər alınır və onlara verilir. Masazırda, Sumqayıtda, Qaradağ rayonunda belə təşəbbüslər irəli sürülür. Onların arasında Qaradağ layihəsini xüsusilə qeyd etmək istərdim. Çünki bu, bir yenilikdir, yeni təşəbbüsdür. Bu, özəl sektor tərəfindən inşa edilən böyük şəhərcikdir. Orada min köçkün ailəsi məskunlaşacaq və bu, çox gözəl nümunədir.

Bu gün Azərbaycanda yaratdığımız şərait nəticəsində yüzlərlə, minlərlə sahibkar öz fəaliyyətini genişləndirir. Bizim sahibkarlarımız böyük imkanlara malikdirlər. Sahibkarların sosial məsuliyyəti də yüksək səviyyədə olmalıdır. Bu şəraiti onlar üçün biz yaratmışıq. Çünki indi Azərbaycanda sabitlik, sürətli inkişaf olmasaydı, bizim sahibkarlar bu qədər inkişaf edə bilməzdilər. Eyni zamanda, dövlət onlara güzəştli şərtlərlə kreditlər verir, onların məsələləri həll olunur. Mən sahibkarlarla dəfələrlə görüşmüşəm. Hər il bir neçə dəfə görüşürəm və tam dəstək göstərilir. Onlar da öz növbəsində sosial məsuliyyəti dərk etməlidirlər. Ona görə, Qaradağ rayonunda sahibkarlar tərəfindən öz vəsaitləri hesabına 1000 mənzillik şəhərciyin tikilməsi çox yaxşı təşəbbüsdür. Mən bunu bəyənirəm, alqışlayıram. Bu, bütün sahibkarlara nümunə olmalıdır. Mən bundan sonra sahibkarların fəaliyyətini, o cümlədən bu göstəriciyə görə də qiymətləndirəcəyəm.

Əlbəttə ki, bütün bu məsələlərin həll edilməsi bir daha bizim dövlətimizin siyasətini, niyyətini ortaya qoyur. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Ona görə sosial məsələlərin həlli daim diqqət mərkəzindədir. Bu il bu məsələlərlə bağlı ciddi addımlar atılmışdır. Beş milyondan çox insan bu il pulsuz müayinədən keçmişdir. Bilmirəm, hansı ölkədə belə bir təşəbbüs var ki, insanlar, əhalinin böyük əksəriyyəti il ərzində pulsuz müayinədən keçsin.

**Sosial infrastruktur obyektlərinin tikintisi aparılmışdır və aparılır. Birinci altı ayda 26 tibb müəssisəsi tikilmiş və təmir edilmişdir. İyirmidən çox modul tipli məktəb tikilmişdir. İlin sonuna qədər onların sayı 100-ə çatmalıdır. Yəni, sosial infrastruktur məsələlərinin həlli daim diqqət mərkəzindədir.**

Əlbəttə ki, bütün bu uğurlara nail olmaq üçün bizim güclü iqtisadi potensialımız olmalıdır. Altı ayın göstəriciləri məni çox qane edir. Qeyri-neft iqtisadiyyatımız altı ayda 1,7 faiz artıb. Bu, çox yaxşı göstəricidir. Mən xüsusilə qeyri-neft iqtisadiyyatını qeyd edirəm. Çünki ümumi iqtisadi göstərici, yəni, ümumi daxili məhsulun göstəriciləri daha çox neftin hasilatına və neftin qiymətinə bağlıdır. Bu da dəyişir. Ona görə, bu, bizim gördüyümüz işlərə qiymət vermək üçün əsas amil kimi qəbul edilə bilməz.

**Qeyri-neft iqtisadiyyatımızda 1,7 faiz artım bizim apardığımız iqtisadi islahatların nəticəsidir. Hesab edirəm ki, bu, xüsusilə indiki şəraitdə çox yaxşı göstəricidir. Qeyri-neft sənayesi daha çox artıb. Burada artım 4,4 faizdir. Hesab edirəm ki, bu da mümkün olan ən gözəl göstəricidir. Bu, onu göstərir ki, islahatlar və apardığımız siyasət öz nəticəsini verir.**

Bu ilin altı ayında ölkə iqtisadiyyatına 5 milyard dollar sərmayə qoyulub. Bu gün sərmayə qoyuluşu demək olar ki, bütün ölkələrdə azalır. Çünki maliyyə sıxıntıları, problemlər var. Amma Azərbaycana sərmayə qoyulur və bu sərmayənin böyük hissəsi xarici sərmayədir. Yəni, xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkədir. Nəyə görə? Təkcə ona görə yox ki, bizdə yaxşı investisiya iqlimi var. Ona görə ki, Azərbaycan bu gün sabitlik məkanıdır və investorlar ancaq sabit olan yerlərə sərmayə qoyurlar. Sabit olan ölkələrin sayı kəskin azalır. Ona görə əminəm ki, gələcəkdə daha çox xarici sərmayədar Azərbaycana investisiya qoymaq üçün bizə müraciət edəcək. Bizim valyuta ehtiyatlarımız artıb və bu günə 40,6 milyard dollar təşkil edir. Bu da çox gözəl göstəricidir. Çünki ilin əvvəlindən bu günə qədər valyuta ehtiyatlarımız təxminən 3 milyard dollar artıb. Baxın, neftin qiyməti kəskin şəkildə düşüb. Sonra isə müəyyən dərəcədə qalxıb. Yenə də düşmə ehtimalı var. Amma bizim valyuta ehtiyatlarımız artır. Nəyə görə? Düşünülmüş siyasətə görə. Ona görə ki, biz heç vaxt populist işlərlə məşğul olmamışıq. Biz hər zaman ölkəmizin uzunmüddətli inkişafı ilə məşğul olmuşuq. Biz həm qənaət etdik, həm islahatlar apardıq. Ancaq strateji əhəmiyyət daşıyan layihələrə vəsait ayırdıq. Əlbəttə ki, biz idxalı azaltmışıq, ixracı isə artırmışıq. Büdcə ilə bağlı heç bir problem yoxdur. Ona görə, Neft Fondundan büdcəyə transferlər də azaldı. Yəni, ilin altı ayında valyuta ehtiyatlarının 3 milyard dollar artması mükəmməl nəticədir.

Bu il 122 min yeni iş yeri açılmışdır ki, onlardan 101 mini daimi iş yeridir. Onu da qeyd etməliyəm ki, 24 min iş yeri bağlandı. Bunun da həm obyektiv, həm də subyektiv səbəbləri var. Bu, əslində daimi prosesdir. Ancaq biz rəqəmlərə baxanda, - 122 min iş yeri açılıb, 24 min iş yeri isə bağlanıb, - əlbəttə, görürük ki, yenə də iş yerlərinin açılması prosesi uğurla gedir. Ona görə də bizdə işsizlik aşağı səviyyədədir.

Xarici ticarət dövriyyəsinin göstəriciləri də müsbətdir. Bu ilin altı ayında ixrac 36 faiz artıb. Burada da ən önəmlisi qeyri-neft ixracıdır. Qeyri-neft ixracı altı ayda 27 faiz artıb. Bax, budur gördüyümüz işlərin nəticələri. Bununla bərabər, idxal 15 faiz azalıbdır. Müsbət saldo 1,9 milyard dollar təşkil edir. Hesab edirəm ki, hər bir ölkə üçün bu, ən arzuolunan nəticələrdir. Kənd təsərrüfatı da 2,2 faiz artıbdır.

Bu göstəricilər, - yəni, bunlara heç bir şərh verməyə ehtiyac yoxdur, - dünya miqyasında bu gün ən gözəl göstəricilərdir. Bunu o ölkə əldə edib ki, biz hələ enerji amilindən asılıyıq. O ölkə əldə edib ki, onun gəlirləri son iki il ərzində üç-dörd dəfə azalıb. Bax, budur bizim siyasətimiz, gördüyümüz işlər və əldə etdiyimiz nəticələr.

X X X

Sonra ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov və "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə ilin altı ayının yekunlarına dair məruzələrlə çıxış etdilər.

***Prezident İlham Əliyev iclasda yekun nitqi söyləmişdir.***

# SOCAR Dünya Neft Şurasının XXII Konqresi çərçivəsində keçirilən sərgidə iştirak edir

Türkiyənin İstanbul şəhərində keçirilən Dünya Neft Şurasının XXII konqresi çərçivəsində aparıcı neft-qaz şirkətlərinin sərgisi təşkil olunub.

SOCAR-dan verilən məlumata görə, sərgidə Azərbaycanı SOCAR təmsil edir. Dünya energetika sektorunun ən əhəmiyyətli tədbiri olan sərgi-konqres Türkiyə Prezident Administrasiyasının himayəsi ilə, qardaş ölkənin Energetika Nazirliyinin təşkilatçılığı, eləcə də SOCAR və TPAO şirkətlərinin sponsorluğu ilə həyata keçirilir.

Sərgidə Türkiyə, ABŞ, Rusiya, Böyük Britaniya, Yaponiya, Çin, Əlcəzair, Qətər, Küveyt, Venesuela, İran, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, İtaliya daxil olmaqla dünyanın 40 ölkəsindən neftin, qazın hasilatı, emalı, kimyası və nəqli sahələrində tanınmış 100-dən artıq böyük şirkət təmsil olunur. SOCAR-ın stendi ziyarətçilər tərəfindən böyük maraqla qarşılanır. Şirkətin pavilyonunda xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi uzaqgörən enerji strategiyası çərçivəsində Azərbaycanın qazandığı uğurlar, Türkiyədə həyata keçirilən nəhəng layihələr, ölkəmizdə tikilməkdə olan Karbomid və Polimer zavodlarında görülən işlər nümayiş olunur. Buradakı monitorlarda Azərbaycanda karbohidrogen ehtiyatlarının kəşfiyyat-axtarış işlərindən görüntülər, neft-qaz yataqları barədə məlumatlar, beynəlxalq ixrac kəmərlərinin tikintisini əks etdirən videoçarxlar təqdim edilir. SOCAR təmsilçiləri dünyanın aparıcı neft-qaz şirkətlərinin nümayəndələrinə şirkətin istər ölkə daxilində, istərsə də beynəlxalq layihələrdə iştirakı və rolu barədə ətraflı məlumat verir, onları maraqlandıran sualları cavablandırırlar.



# Türkiyə-Azərbaycan birliyi bölgəyə sabitlik, rifah gətirir və geniş əməkdaşlığa qapılar açır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresində iştirak etmək üçün iyulun 9-10-da Türkiyə Respublikasında səfərdə olmuşdur.

İyulun 10-da İstanbulda keçirilən 22-ci Dünya Neft Konqresi işə başlamazdan əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Serbiya Prezidenti Aleksandr Vuçiç, Türkiyənin Baş naziri Binəli Yıldırım, Albaniyanın Baş naziri Edi Rama, Bolqarıstanın Baş naziri Boyko Borisov, Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrak və Dünya Neft Şurasının prezidenti Cozef Tot arasında qısa söhbət olmuşdur.




İstanbulun ev sahibliyi etdiyi 22-ci Dünya Neft Konqresi çərçivəsində iyulun 10-da prezidentlərin tədbiri keçirilib.

Dövlətimizin başçısı tədbirdə çıxış etmişdir. O, demişdir:

- Türkiyə bu gün dünya miqyasında böyük bir gücdür. Türkiyə dünya gündəliyinin bir çox məsələlərində həlledici sözə malikdir. Bütün bu uğurlar mənim qardaşım Prezident Ərdoğanın liderliyi ilə əldə edilibdir. Bu gün Türkiyə uğurla, sürətlə inkişaf edir. Türkiyə Prezident Ərdoğanın liderliyi ilə çox böyük və şərəfli yol keçmişdir. Bugünkü toplantı bunun təzahürüdür. Türkiyə gücləndikcə biz də güclənirik, biz də sevinirik.

Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birinin yanındadır. Bizim əməkdaşlığımız çoxşaxəlidir və bütün sahələri əhatə edir. O cümlədən, enerji sahəsində Türkiyə-Azərbaycan əməkdaşlığı, işbirliyi bir çox önəmli strateji layihələrin icrasına imkan verdi. Onların arasında Bakı-Tbilisi-Ceyhan neft kəmərini, Bakı-Tbilisi-Ərzurum qaz kəmərini və TANAP layihəsini xüsusi qeyd etmək istərdim. Bu layihələr nəinki regionumuzun, dünyanın enerji xəritəsini yenidən tərtib etdi.

Azərbaycan qədim neft diyarıdır. 1994-cü ildən etibarən Azərbaycanın neft sənayesinə böyük sərmayə qoyulmağa başlanmışdır. Eyni zamanda, 1994-cü il ona görə əlamətdar bir tarixdir ki, məhz o ildə “Əsrin kontraktı” imzalanmışdır. Bu kontrakt Bakı-Tbilisi-Ceyhan kəmərinin neftlə doldurulmasında əsas rol oynayır. Ondan sonra Azərbaycanda çox zəngin “Şahdəniz” qaz yatağı aşkar edilmişdir. Bu yatağın qaz ehtiyatlarının həcmi 1,2 trilyon kubmetrdir. Bu, dünya miqyasında ən böyük qaz yataqlarından biridir və bu gün Cənub Qaz Dəhlizinin resurs bazasının əsasını təşkil edir.

Beləliklə, artıq Azərbaycan müasir dövrdə neft və qazı hasil və ixrac edən ölkəyə çevrilmişdir. Bizim ölkəmiz dünya bazarlarına çıxış əldə etmək üçün neft-qaz kəmərləri tikməli idi. Çünki bizim dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Bu məqsədlə 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri və 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilmişdir. Ondan bir neçə il əvvəl Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı-Supsa neft kəməri tikilmişdir. Beləliklə, Azərbaycanın təbii resurslarının dünya bazarlarına çıxarılması üçün kifayət qədər böyük şəbəkə yaradılmışdır. 2006-cı ildə Ceyhanda qardaşım Prezident Ərdoğanla bir yerdə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışında iştirak edirdik və o vaxt da biz gələcək planlar haqqında düşünürdük, fikir mübadiləsi aparırdıq. O vaxtdan bu günə qədər bizim bütün planlarımız uğurla reallaşır. Çünki biz bu gün Cənub Qaz Dəhlizi kimi meqa layihənin üzərində çalışırıq, onun da təməli Türkiyədə, bu gözəl İstanbul şəhərində qoyulmuşdur. 2012-ci ildə qardaşım Prezident Ərdoğanla TANAP layihəsi haqqında müqaviləni imzaladıq. TANAP layihəsi Cənub Qaz Dəhlizinin özəyidir. Məhz ondan sonra bütün digər istiqamətlər üzrə işlər başlamışdır. Bu gün “Cənub Qaz Dəhlizi” layihəsi uğurla icra edilir. Bu layihə 4 hissədən ibarətdir. Birinci hissə “Şahdəniz” qaz yatağıdır, orada “Şahdəniz-2” layihəsinin icrası artıq 93 faizə çatıbdır, yaxın aylarda tam başa çatacaqdır. İkinci hissə Azərbaycanı Gürcüstanla birləşdirən Cənubi Qafqaz qaz boru kəməridir. Orada da işlər 87 faiz səviyyəsində tamamlanmışdır. Üçüncü və ən əsas hissə TANAP qaz kəməridir. Burada da tamamlanma səviyyəsi 77 faizdir və biz gələn il bu layihənin icrasını qeyd edəcəyik. Nəhayət, dördüncü hissə TAP – Trans-Adriatik kəməridir. Burada da icra 44 faiz səviyyəsindədir. Bütün bu dörd önəmli layihə Cənub Qaz Dəhlizini təşkil edir. Bu layihənin icrası üçün 40 milyard dollar sərmayə tələb olunur, onun böyük hissəsi artıq qoyulubdur.

Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Gələcək onilliklər ərzində Azərbaycan qazı həm region, həm də Avropa ölkələrinin tələbatını ödəyəcəkdir. Artıq bu gün demək olar ki, “Cənub Qaz Dəhlizi” layihəsi uğurla icra ediləcək və Azərbaycan bundan sonra uzun illər ərzində həm bölgə, həm də Avropa ölkələrini təbii qazla təmin edəcəkdir.

İkinci məsələ, neftdən əldə edilən gəlirlərdən düzgün istifadə olunmalıdır. Biz neftdən əldə edilən gəlirləri, ilk növbədə, infrastruktur layihələrinə yönəltdik. Bu gün biz nəinki nefti, qazı, eyni zamanda, son illər ərzində tikdiyimiz onlarla elektrik stansiyasının istehsal etdiyi enerjini də ixrac edirik. Biz sosial infrastruktur layihələrinə böyük vəsait qoyduq - məktəb, xəstəxana tikintisi. Yoxsulluqla çox ciddi mübarizə aparılır. Neft sektoru əslində çox iş yeri yaradan sektor deyil. Amma buna baxmayaraq, biz neftdən əldə olunan gəlirləri digər sektorlara yönəldərək yoxsulluğu, işsizliyi aşağı səviyyəyə sala bildik və bu gün bu, təxminən 5-6 faiz səviyyəsindədir. Yəni, düzgün siyasət və düzgün atılan addımlar nefti həm faydaya çevirə bilər, həm də bu sərvət ölkələr üçün problem yarada bilər.

Hesab edirəm ki, Azərbaycan təcrübəsi uğurludur. Bizim ölkəmizə xarici sərmayə də böyük həcmdə qoyulur. Öz növbəmizdə, biz də xarici ölkələrə sərmayə qoyuruq. Burada da birinci yerdə qardaş ölkə Türkiyədir. Türkiyənin enerji sektoruna bu günə qədər 10 milyard dollar sərmayə qoyulubdur. Növbəti illərdə bu rəqəm təxminən iki dəfə artacaqdır.

Bir sözlə, əziz dostlar, bu gün biz enerji təhlükəsizliyi deyəndə əlbəttə ki, icra etdiyimiz layihələr yada düşür. Bir daha çıxışımın əvvəlinə qayıtmaq istəyirəm. Türkiyə-Azərbaycan birliyi, dostluğu, qardaşlığı təkcə iki ölkənin mənfəətini, uğurlu gələcəyini müəyyən etmir. Bunun bölgəyə çox böyük təsiri var. Bu, bölgəyə sabitlik, rifah gətirir, yeni iş yerlərinin yaradılmasına xidmət göstərir, təhlükəsizlik tədbirlərini gücləndirir və geniş əməkdaşlığa qapılar açır.

# *Maliyyə hesabları barədə məlumatlar avtomatik mübadilə ediləcək*



Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentində maliyyə institutlarının məsul şəxsləri üçün Ümumi Hesabatlılıq Standartının (CRS) tətbiqi ilə bağlı seminar keçirilib.

Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin Maliyyə institutlarında vergi monitorinqi idarəsinin direktoru Səfərəli Cavadov bildirib ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən hazırlanan bu standart dünyanın 100-dən çox ölkəsində tətbiq olunur. Sənəd vergitutma məqsədləri üçün müxtəlif dövlətlər tərəfindən xarici şəxslərin həmin dövlətlərdəki maliyyə institutlarında olan hesabları haqqında məlumatların toplanmasını və həmin hesab sahiblərinin rezidentləri olduqları dövlətlərə ötürülməsini tənzimləyir.

Standartın tələbinə əsasən, maliyyə institutları hesab açan şəxslərə özünüqiymətləndirmə anketini təqdim etməlidir. Həmin anketlərin hazırlanmasında böyük bankların təcrübəsindən istifadə olunub. Bildirilib ki, Vergi Məcəlləsinə edilmiş sonuncu dəyişikliklərə əsasən, maliyyə institutları tərəfindən hüquqi və fiziki şəxslərə hesab açıldıqda və ya maliyyə xidmətləri göstərildikdə Azərbaycanın normativ hüquqi aktlarının, habelə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl edilməməsinə görə - hər belə hesab və ya əməliyyat üçün maliyyə institutlarına 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Maliyyə institutlarında vergi monitorinqi idarəsinin Maliyyə institutlarında vergi əməletməsinə nəzarət şöbəsinin əməkdaşı Elxan Əhmədzadə bildirib ki, bu standartı tətbiq etmək üçün maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında çoxtərəfli razılaşmaya qoşulmaq zəruri hesab olunurdu. Bildirilib ki, CRS bu il iyulun 1-dən Azərbaycanda tətbiq edilməyə başlanılıb: «Maliyyə hesabları haqqında məlumatların hesab sahiblərinin rezidenti olduqları dövlətlərlə avtomatik mübadiləsinin vahid prinsiplərini tənzimləyən CRS-in tətbiqində məqsəd bu sahədə şəffaflığın yaxşılaşdırılması, vergidən yayınmaya qarşı mübarizə və vergi daxilolmalarının artırılmasıdır».

Qeyd edilib ki, burada hesabat verən maliyyə institutu dedikdə, CRS məqsədləri üçün bank fəaliyyətini həyata keçirən təşkilat, depozitar, investisiya təşkilatı, müəyyən olunmuş sığorta şirkətləri başa düşülür. Hesab sahibləri hüquqi və fiziki şəxslərdir. Fiziki şəxslərə məxsus hesabların yoxlama prosedurları və hesabat verilməli hesabların müəyyən edilməsi barədə bildirilib ki, bunun üçün rezidentlik meyarı əsas götürülür.

Daha sonra hesabat göndərilən yurisdiksiyada yerləşən qeydiyyat və ya faktiki yaşayış ünvanı, hesabat göndərilən yurisdiksiyada olan telefon nömrəsi, maliyyə vəsaitlərinin xaricdəki hesaba köçürülməsinə dair dövri ödəniş və ya mütəmadi köçürmələr, xaricdə ünvanı olan şəxsə hesab ilə əlaqədar verilmiş qüvvədə olan etibarnamə və ya imza səlahiyyəti, maliyyə institutunun baza məlumatlarında hesab sahibinə məxsus yeganə ünvanın «vasitəçi ünvanı» və ya «əmanət ünvanı»nın olması da əsas meyar kimi müəyyən olunub.

Meyarların müəyyənləşdirilməsi üçün fiziki şəxslərə məxsus aşağı və yüksək dəyərli əvvəlcədən mövcud olan hesabların yoxlanılması 30 iyun 2018-ci ilədək başa çatdırılmalıdır».

Vurğulanıb ki, fiziki şəxsin hesablarından fərqli olaraq, hüquqi şəxslərə məxsus elə hesablar var ki, onların araşdırılması, müəyyən edilməsi və məlumat verilməsi tələb olunmur: «30 iyun 2017-ci il tarixə məcmu qalığı və ya dəyəri 250 min ABŞ dolları olan hesablar 2018-ci il və növbəti illərin son gününə 250 min dolları keçməyəcəksə, həmin hesablar barədə məlumat verilməyəcək. Araşdırılması tələb edilən əvvəlcədən mövcud olan hesablar isə 30 iyun 2017-ci il tarixə məcmu qalığı və ya dəyəri 250 min dolları keçən hesablardır. Eyni zamanda, bu tarixə məcmu qalığı və ya dəyəri 250 min dollar olub, lakin 2018-ci ilin və növbəti illərin son gününə 250 min dolları keçən hesabların da araşdırılması tələb edilir».

Hüquqi şəxslərə məxsus əvvəlcədən mövcud olan hesabların yoxlama müddəti barədə bildirilib ki, 30 iyun 2017-ci il tarixə məcmu qalığı və ya dəyəri 250 min dolları keçən əvvəlcədən mövcud olan hüquqi şəxs hesablarının yoxlanılması 30 iyun 2018-ci ilədək başa çatdırılmalıdır. 30 iyun 2017-ci il tarixinə məcmu qalığı və ya dəyəri 250 min dolları keçməyən, lakin 2017-ci ilin və ya növbəti ilin 31 dekabr tarixinə 250 min dolları keçən əvvəlcədən mövcud olan hüquqi şəxs hesablarının yoxlanılması hesabın məcmu qalığı və ya dəyərinin 250 min ABŞ dolları məbləğini keçdiyi təqvim ilindən sonra növbəti il ərzində yekunlaşmalıdır.

Sonda maliyyə institutları nümayəndələrinin sualları cavablandırılıb.

# 2017-ci ilin I yarımilliyi ərzində vergi orqanlarına daxil olmuş vətəndaş müraciətləri haqqında




2017-ci ilin I yarım illiyi ərzində vergi orqanlarına 50902 müraciət daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,7% çoxdur. Müraciətlərdən 94,8%-i ərizə, 5%-i şikayət, 0,2%-i təklif olub.
Müraciətlərin 41,1%-i müxtəlif arayışların alınması, 28,6%-i kameral vergi yoxlamaları, 11,2%-i vergi borcları, 2,6%-i vergi qanunvericiliyinin tətbiqi, 2,5%-i vergidən yayınma, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, qanunsuz sahibkarlıq fəaliyyəti, 1,9%-i səyyar vergi yoxlamaları, qalanları isə digər məsələlərlə bağlı olub.
Bütün müraciətlərə vaxtında baxılıb, onların 72,9 %-i müsbət həll olunub.
Hesabat dövründə vergi orqanlarında ümumilikdə 2003 vətəndaş qəbul edilərək, onlara qanunvericilik çərçivəsində lazımi köməklik göstərilib və ya müvafiq izahatlar verilib.

# Neftçalada avtomobil zavodunun 60 faizi tikildi



Neftçala Sənaye Məhəlləsində "Azevrocar" MMC-nin İranın "İran Khodro" şirkəti ilə birgə həyata keçirdiyi layihə üzrə avtomobil istehsalı zavodunun tikintisi sürətlə davam edir.
Təməli 2016-cı ilin avqust ayında qoyulan zavodun tikintisində inşaat işlərinin 60 faizindən çoxu artıq başa çatıb.
İstehsal gücü ildə 10 min avtomobil olacaq zavodda 300 yeni iş yerinin yaradılması nəzərdə tutulur. Dəyəri 15 milyon ABŞ dolları olan layihə üzrə müvafiq anlaşma memorandumları ötən ilin aprelində imzalanıb. Həmçinin, avtomobil zavoduna Neftçala Sənaye Məhəlləsinin iştirakçısı statusunu təsdiq edən şəhadətnamə verilib. Sənaye məhəlləsində avtomobil istehsalı zavodunun qurulması köməkçi sənaye istehsalı və xidmət sahələrinin inkişafı üçün də əlverişli imkan yaradır.
Sahə rəisi Mehdi Hacıyev bildirib ki, plan üzrə layihəyə daxil olan bütün binalarda tikinti işlərinə start verilib. Paralel olaraq, layihə üzrə nəzərdə tutulan metal konstruksiya hissələrinin sifarişi həyata keçirilib və emalına başlanılıb. Cari ilin mart ayında layihə üzrə ümumi tikinti sahəsi 15000 kvadratmetr olan yığım sexi və son tamamlama binasının dəmir-beton konstruksiyaları tamamlanıb, hörgü işləri yekunlaşıb. Artıq metal konstruksiyalar quraşdırılır. Digər köməkçi binalarda isə konstruksiyaların quraşdırılması başa çatıb.
Tikintidə işlərin sürətləndirilməsi məqsədilə bir sıra tədbirlər də görülür. Binaların elektriklə təminatı, yol və abadlıq, həmçinin digər texniki layihələrə daxil olan podrat işlərinin iş həcmlərinə uyğun təkliflər alınıb, subpodrat təşkilatları müəyyənləşib. Ən yaxın zamanda bu işlərin icrasına da start veriləcək. Zavodun tikintisinin bu ilin üçüncü rübündə başa çatdırılması nəzərdə tutulub.

# "Kapital Bank" 2017-ni 41 milyon manat xalis qazancla yarıladı




"Kapital Bank" ASC 2017-ci ilin 1-ci yarısını 40 milyon 758 min manat xalis mənfəət ilə başa vurub.
Bankın yarımillik hesabatlarına əsasən, yanvar-iyun aylarında Bankın cəmi gəlirləri 196,4 milyon manat təşkil edib. Faiz və qeyri-faiz xərcləri çıxıldıqdan sonra Bankın 79 milyon 475 min manat əməliyyat mənfəəti qalıb. Əməliyyat mənfəətinin 27 milyon 261 min manatı aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına ayrılıb. Vergidən öncəki 52 milyon 213 min manat mənfəətdən 11 milyon 455 min manat mənfəət vergisi ödənilib.
30 iyun 2017-ci il tarixində Kapital Bank 3 milyard 190 milyon manat cəmi aktivlərə, 2 milyard 919 min manat cəmi öhdəliklərə, 271 milyon 946 min manat cəmi kapitala malik olub. Bank ötən ilin sonunda 2 milyard 923 milyon manat aktivlərə, 2 milyard 606 milyon manat cəmi öhdəliklərə və 317 milyon manat cəmi kapitala malik idi.
Ötən ilin sonu ilə müqayisədə Bankın kredit portfeli 1 milyard 203 milyon manatdan 1 milyard 181 milyon manata geriləyib, depozit portfeli isə 2 milyard 10 milyon manatdan 2 milyard 332 milyon manata qalxıb.

# "DəmirBank"a yeni səhmdarlar gəlir, kapitalı neqativdən çıxacaq



Xəbər verdiyimiz kimi, 11 beynəlxalq investor "DəmirBank" ASC-nin məcmu kapitalının artırılmasına qərar vermişdir.
Belə ki, məcmu kapitalın əhəmiyyətli dərəcədə artırılması planı Bankın xarici borclarının (105 milyon dollar = 179 milyon manat) 1-ci dərəcəli kapitala çevrilməsini nəzərdə tutur.
Dəmir Bankın 1-ci dərəcəli kapitalının 179 milyon manat artırılması ilə Bankın cəmi kapitalı təxminən 43 milyon manata qalxacaqdır.
2016-cı ildə DəmirBank zərər etdiyindən Bankın məcmu kapitalı neqativ 136 milyon 147 min manata düşmüşdü. Bankın xarici borclarının kapitala çevrilməsi nəticəsində 136 milyon 147 min manat örtüləcək, eyni zamanda, Bankın təxminən müsbət 43 milyon manat cəmi kapitalı yaranacaqdır. Əgər "DəmirBank" bu il mənfəət əldə edib yığılmış zərərini azaldarsa, eyni zamanda, nizamnamə kapitalını artırarsa, bankın məcmu kapitalı tələb olunan 50 milyon manatı keçə bilər.
Qeyd edək ki, Beynəlxalq investorlar sırasında Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı (yeni), Qara dəniz Ticarət və İnkişaf Təşkilatı (yeni), German DEG (KfW Group) (yeni), Hollandiya Maliyyə Təşkilatı (FMO), İsveçrə responsAbility Investments AG (yeni), OPEK Beynəlxalq İnkişaf Fondu (yeni) və digər maliyyə nəhəngləri yer alır.
"29 iyun 2017-ci il tarixində kompleks yenidən kapitallaşma planı maliyyə nizamlayıcısının - Maliyyə Bazarlarına Nəzarət Palatasının diqqətinə çatdırılıb. Razılaşdırılmış təklifə əsasən, beynəlxalq investorlar Azərbaycanın maliyyə sektorunda əsas beynəlxalq oyunçulardan biri olmaq üçün inkişaf etdiriləcək "DəmirBank"ın əsas səhmdarları olacaqlar", Bankın yaydığı açıqlamada deyilir.
Hazırda "Dəmirbank"ın nizamnamə kapitalı 21 milyon manatdır. Bu məbləğin 25%-ni və yaxud 5,25 milyon manatını Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), 10%-ni və yaxud 2,1 milyon manatını Hollandiya İnkişaf Maliyyə Şirkəti (FMO), qalan 65%-ni və yaxud 13,65 milyon manatını isə Bankın Müşahidə Şurasının sədri Rəhman Hacıyev və onun ailə üzvləri daxil olmaqla yerli səhmdarlar təmin edib. Yəni, hazırda Bankda xarici investorların payı 35% və yaxud 7,35 milyon manatdır.
Yeni kapitallaşma planına əsasən, "Dəmirbank"ın nizamnamə kapitalı 105 milyon dollar və yaxud bugünkü məzənnə ilə 178,5 mln. manat artırılaraq 199,5 mln. manata çatdırılacaq. Kapital artımı son vaxtlar Azərbaycanın bank sektorunda geniş yayılmış təcrübə - xarici investorlara qaytarılmalı olan borcların adi səhmlərə çevrilməsi yolu ilə həyata keçiriləcək. Bu isə o deməkdir ki, Bankın nizamnamə kapitalında yerli səhmdarların payı 13,65 milyon manat (6,85%) qalacaq, xarici səhmdarların payı isə 185,85 milyon manat (93,15%) olacaq.

# "Bazardan çıxmaq həddinə gəlmiş yerli şirkətlərə kömək etdik"

Azərbaycanda pərakəndə sektorun inkişafı, xüsusilə supermarket şəbəkələrinin böyüməsi yerli istehsala dəstək olur.
Bunu "Araz Supermarket" MMC-nin direktoru Vüsal Şərifov bildirib.
"Bir neçə yerli istehsalçı şirkət öz potensialından kifayət qədər istifadə edə bilmirdi. Çünki onlar istehsal etdikləri məhsulların satışının təşkil olunmasında müəyyən problemlərlə qarşılaşırdılar. Bu problemlər onların maddi durumuna ciddi təsir edərək, şirkətlərin bazardan çıxması həddinə gətirmişdi. Biz bu şirkətlərə "Araz" və "Spar" supermarketlər şəbəkəsi vasitəsilə dəstək olduq. Onlara tam istehsal gücünə keçəcək qədər sifarişlər verərək istehsal həcmini çoxaltdıq. Yerli istehsalçıların məhsullarının satışını şəbəkə olaraq həyata keçirdik. Eyni zamanda, öz şəxsi markalarımız olan MASTERO, TAC adı ilə məhsul istehsal etmələrini sifariş etdik", - o deyib.
Bəzi ölkələrdə yerli istehsala dəstək məqsədilə yalnız yerli istehsal mallarının satıldığı marketlər şəbəkəsi yaradılır. Şirkət direktoru hesab edir ki, Azərbaycanda yalnız yerli istehsal məhsullarının satıldığı marketlər şəbəkəsinin yaradılması bir qədər tezdir. Bunun üçün yerli məhsulların çeşidi xeyli artmalıdır:
"Bir sıra yerli istehsalçılar öz firma mağazalarını yaradırlar və uğur qazananlar da var. Lakin yalnız yerli istehsalçıların məhsullarının satıldığı şəbəkənin yaradılmasına ehtiyac yoxdur. Çünki bu gün müştərilər tələbatı olan bütün istehlak mallarını bir marketə daxil olaraq almaq istəyir. Hazırda yerli istehsalçılar alıcıların bütün ehtiyaclarını ödəyə biləcək çeşiddə və növdə məhsul istehsal edə bilmirlər. Eyni zamanda, elə məhsullar var ki, ölkəmizdə onların istehsal müəssisələri yoxdur. Biz "Araz" və "Spar" supermarketlərində əksər yerli istehsalçıların məhsullarını satırıq, eyni zamanda, xaricdən idxal olunan məhsullar da təklif edirik".
Vüsal Şərifov qeyd etdi ki, yerli istehsalçılara xüsusi güzəştlər edilir, rəflərdə yerli məhsullar önə çəkilir, eyni zamanda, şirkətlərə mağazalar daxilində öz reklamlarını aparmalarına şərait yaradılır.

# Dövlət istiqrazlarının gəlirliliyi 10 faiz səviyyəsinə düşdü

11 iyul 2017-ci il tarixində Bakı Fond Birjasında Maliyyə Nazirliyinin AZN nominallı, AZ0104016545 ISIN kodlu, 364 gün tədavül müddətli, 20 000 000 AZN həcmində qısamüddətli dövlət istiqrazlarının yerləşdirilməsi üzrə hərrac keçirilmişdir.
Bakı Fond Birjasından daxil olmuş mə-



lumata görə, hərrac zamanı 13 investor tərəfindən 28 sifariş təqdim olunmuşdur. Sifarişlərin nominal üzrə ümumi məbləği 76,617,100.00 təşkil etmişdir.
Sifarişlər 86.3462 AZN (15.8999%) və 90.9317 AZN (10.0275%) qiymət intervalında təqdim edilmişdir.
Hərracın yekunları üzrə bağlanılmış əqdlərin kəsmə qiyməti 90.1390 AZN (11.0000%), orta ölçülmüş qiyməti 90.2626 AZN (10.8472%) təşkil etmişdir.

# "NBC Bank" birinci yarım ili mənfəətlə başa vurub

"NBC Bank" əsas göstəricilər üzrə artıma nail olub.
"NBC Bank" ASC 2017-ci ilin 1- ci yarısını 1 milyon 340 min manat xalis mənfəət ilə başa vurub.
Banka istinadən xəbər verilir ki, cari ilin yanvar-iyun aylarında Bankın cəmi gəlirləri 8 milyon 882 min manat, cəmi xərcləri isə 6 milyon 179 min manat təşkil edib.
Bank 2 milyon 703 min manat əməliyyat mənfəətinin 1 milyon 364 min manatını aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına ayırıb. Nəticədə, Bankın 1 milyon 340 min manat xalis mənfəəti qalıb.
"NBC Bank" 2015 və 2016-cı illərdə məlum iqtisadi çətinliklər ilə əlaqədar olaraq zərər açıqlamışdı.

NBCBank
Hər zaman yanınızda!

**AKTİVLƏRİ VƏ KAPİTALI ARTIB**

30 iyun 2017-ci il tarixində "NBC Bank" 169 milyon 591 min manat cəmi aktivlərə, 114 milyon 834 min manat cəmi öhdəliklərə, 54 milyon 757 min manat cəmi kapitala malik olub. Ötən ilin sonunda Bank 158 milyon 970 min manat cəmi aktivlərə, 106 milyon 31 min manat cəmi öhdəliklərə, 52 milyon 939 min manat cəmi kapitala malik idi.

**KREDİT VƏ DEPOZİT PORTFELİ ARTIB**

Birinci yarımildə "NBC Bank"ın kredit portfeli 120 milyon 975 min manatdan 127 milyon 302 min manata yüksəlib. İlk 6 ayda Bankda depozitlər isə ötən ilin sonundakı 67 milyon 598 min manatdan 69 milyon 411 min manata qalxıb.

# GÖRKƏMLİ İQTİSADÇI ALİM AKİF MUSAYEVİN ÇOXTƏRƏFLİ YARADICILIĞINA KOMPLEKS BAXIŞ



*Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti akademik Akif Əlizadənin rəhbərliyi ilə AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Akif Musayevin 70 illik yubileyi ilə əlaqədar xüsusi qərar qəbul etmişdir. Həmin qərara görə, A.Musayev Fəxri Fərmanla təltif edilmiş və onun yubileyinə həsr olunmuş elmi konfransın keçirilməsi planlaşdırılmışdır.*

*18 iyul 2017-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, iqtisad elmləri doktoru, professor Akif Musayevin anadan olmasının 70, elmi-ictimai və pedaqoji fəaliyyətinin isə 50 ilinin tamam olması faktı nəzərə alınaraq onun çoxtərəfli elmi-pedaqoji yaradıcılığının, ictimai-inzibati fəaliyyətinin elmi-analitik təhlili ölkədə həyata keçirilən postneft dövrünün iqtisadi siyasəti və islahatları baxımından həm aktualdır, həm də mühüm elmi-texniki və iqtisadi əhəmiyyətə malikdir.*

**Formalaşma mərhələləri.** Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirən A.Musayev hələ 1967-ci ildən Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunun "İqtisadi-riyazi modellər" laboratoriyasında işləməyə başlamışdır. 1972-1975-ci illərdə Moskvada SSRİ Elmlər Akademiyasının Mərkəzi İqtisadiyyat-Riyaziyyat İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir. Sonra isə A.Musayev 1976-1980-ci illərdə təkrarən Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunda əvvəlcə kiçik elmi işçi, sonra isə baş elmi işçi vəzifələrində elmi fəaliyyətlə məşğul olmuşdur.

1977-ci ildə Moskva şəhərində SSRİ Elmlər Akademiyasının Mərkəzi İqtisadiyyat-Riyaziyyat İnstitutunun ixtisaslaşmış elmi şurasında "İqtisadi-riyazi üsullar" ixtisası üzrə "Avtomobil nəqliyyatında növbəli gündəlik tapşırıqların effektliliyinin operativ planlaşdırma üsulları ilə yaxşılaşdırılması" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.

1980-1984-cü illərdə Azərbaycan Neft və Kimya İnstitutunun "Tətbiqi riyaziyyat" kafedrasında baş müəllim, 1984-1991-ci illərdə dosent vəzifələrində çalışmış və həm o dövr üçün, həm də indi çox vacib sayılan "İqtisadiyyatda riyazi üsul və modellər", "Riyazi proqramlaşdırma", "Ekonometriya" fənlərinin tədris-metodiki təminatının yaradılması və tədrisi ilə məşğul olmuş, tələbələrə mühazirələr oxumuşdur.

1991-1999-cu illərdə A.Musayev Azərbaycan Dövlət Neft Akademiyasının "Sənayenin iqtisadiyyatı" fakültəsi nəzdində "Maşınqayırma sənayesinin iqtisadiyyatı və menecment" kafedrasına rəhbərlik etməklə yanaşı, müxtəlif iqtisadi fənlər üzrə mühazirələr oxumuş, seminarlar təşkil etmiş, elmi-tədqiqat işləri yerinə yetirmişdir.

A.Musayev 1992-ci ildə Tbilisi Dövlət Universitetinin ixtisaslaşmış elmi şurasında 05.00.08 - "Xalq təsərrüfatı və onun sahələrinin (sənaye) iqtisadiyyatı, planlaşdırılması və idarə edilməsinin təşkili" ixtisası üzrə "Yeni təsərrüfatçılıq şəraitində neft maşınqayırma sənayesinin inkişafının idarə edilməsinin iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və iqtisad elmləri doktoru alimlik dərəcəsi almışdır.

O, 1993-cü ildən professor, 30 iyun 2001-ci il tarixdən isə iqtisadiyyat elmləri üzrə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvüdür.

Professor Akif Musayev 1999-cu ildən başlayaraq respublikanın vergi sistemində çox məsul rəhbər işdə ictimai-inzibati fəaliyyətlə yanaşı, elmi-pedaqoji fəaliyyətinidə uğurla davam etdirmişdir.

2007-2011-ci illərdə prof. A.Musayev Azərbaycan Universitetinin rektoru kimi çox böyük təşkilati elmi işlər həyata keçirmişdir. 2002-2007-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində onun təşəbbüsü ilə yaradılmış "Vergi və vergiqoyma" kafedrasına rəhbərlik etmiş və həmin sahədə ixtisaslı kadrların hazırlığının əsasını qoymuşdur.

AMEA-nın müxbir üzvü, professor A.Musayev Rusiyada, ABŞ-da, İranda, Almaniyada, Türkiyədə, Macarıstanda, Fransada, Latviyada, İtaliyada və bir çox digər ölkələrdə keçirilən beynəlxalq elmi konfrans və simpoziumlarda ölkəmizi, elm və təhsilimizi yüksək peşəkarlıqla təmsil etmişdir.

A.Musayev harada işləməsindən asılı olmayaraq 1993-cü ildən professor, 2001-ci ildən isə AMEA-nın müxbir üzvü kimi bu günə qədər AMEA-da fəaliyyət göstərir. AMEA Kibernetika İnstitutunda 2001-ci ildə təşkil edilmiş "Fiskal siyasətin iqtisadi-riyazi modelləşdirilməsi" elmi-tədqiqat laboratoriyasına rəhbərlik etməklə Azərbaycan vergi sisteminin elmi bazasının yaradılması, AMEA-nın, o cümlədən İdarəetmə Sistemləri İnstitutunun Azərbaycan Respublikası iqtisadiyyatının aktual problemlərinin həll edilməsinə cəlb edilməsi sahəsində çox səmərəli iş aparmışdır.

2017-ci ildən başlayaraq AMEA Rəyasət Heyətinin qərarı ilə şöbə rəhbəri kimi fəaliyyətini AMEA İqtisadiyyat İnstitutunda davam etdirən professor A.Musayev iqtisadi tədqiqatları ilə yanaşı, iqtisadi proses və tədqiqatların proqram və riyazi təminatı sahəsində müvafiq elmi-tədqiqat işlərini uğurla davam etdirməkdədir.

**Professor Akif Musayevin elmi fəaliyyəti. AMEA-nın müxbir üzvü, professor A.Musayev ümumilikdə 500-dən çox elmi əsərin, o cümlədən 10 monoqrafiyanın, 25 dərslik və dərs vəsaitinin, 12 fənn proqramının, 150 elmi məqalənin, 300-dən çox broşura, metodik göstəriş, elmi-populyar məqalənin, məruzənin və s. müəllifidir. Əsərləri xarici ölkələrdə, o cümlədən Almaniyada, Rusiyada, İranda, Macarıstanda, İtaliyada, Latviyada, ABŞ-da və digər ölkələrdə çap olunmuş, bir çox beynəlxalq konfrans və simpoziumlarda dinlənilmişdir.**

Professor A.F.Musayevin elmi-tədqiqat işləri əsasən üç sahənin texniki-iqtisadi problemlərinin həllini əhatə edir.

*Akif Musayevin Elmi Fəaliyyətinin birinci istiqaməti* onun Kibernetika İnstitutunda ilkin elmi fəaliyyəti və Moskvada aspirantlıq dövrü ilə əlaqədardır. O, 1967-ci ildə Azərbaycan Respublikası EA-nın Kibernetika İnstitutunda işə başladığı dövrdən iqtisadiyyatın müxtəlif sahələrinə aid aparılan elmi tədqiqatlarda iştirak etmişdir.

O, ilk illərdən başlayaraq avtonəqliyyat vasitələrilə tikinti materiallarının daşınmasının optimal planının qurulması problemi ilə məşğul olmuşdur.

A.Musayevin namizədlik dissertasiyasında heç vaxt aktuallığını itirməyən və böyük iqtisadi əhəmiyyətə malik olan yükdaşıma şəraitində normativ iş günündən və avtomobil nəqliyyatı vasitələrindən səmərəli istifadə olunması üçün ciddi riyazi əsaslandırmalarla operativ planlaşdırma mexanizmi təklif edilmişdir.

A.Musayevin elmi fəaliyyətinin birinci istiqamətində tədqiq etdiyi sahələr həmçinin Azərbaycan iqtisadiyyatının hesabat, plan və icmal balansının tərtibi və həllini əhatə etmişdir.

*Akif Musayevin elmi tədqiqat fəaliyyətinin ikinci istiqaməti* neft maşınqayırması və neft-qaz sənayesinin mərkəzləşmiş planlaşdırma və müstəqil ticarətin mövcudluğu şəraitində ölkənin iqtisadiyyatının yanacaq-enerji resurslarına çoxşaxəli daxili və xarici tələbatının ödənilməsi zəruriliyi, neft-qaz sənayesinin neft maşınqayırma avadanlıqlarına tələbatının maksimal ödənilməsi vacibliyi, iqtisadi və təsərrüfat əlaqələrinin kəsildiyi və bu kompleksin əsas elementlərinin müxtəlif müstəqil dövlətlərin ərazisində qaldığı və yanacaq-enerji kompleksinin beynəlxalq sistemə inteqrasiyası imkanlarının məhdudluğu şəraitində Azərbaycan Respublikasının maşınqayırma sənayesinin əsasını təşkil edən neft maşınqayırmasının inkişafının idarə edilməsinin, neft-qaz sənayesi ilə qarşılıqlı əlaqələrinin iqtisadi problemlərinin elmi həlli sahəsində apardığı elmi tədqiqatları əhatə edir. Professor A.F.Musayev tərəfindən Azərbaycan Respublikası neft maşınqayırma sənayesinin bazar iqtisadiyyatının formalaşması mərhələsində fəaliyyətinin yaxşılaşdırılması "Azneftmaş" Elm-İstehsalat Birliyinə daxil olan iri, orta və kiçik zavodlarda dövlət səhmdar və özəl mülkiyyət formalarının bazar iqtisadiyyatı prinsipləri ilə uyğunlaşdırılması üçün kompleks metodika işlənib hazırlanmışdır.

*Akif Musayevin Elmi Fəaliyyətinin üçüncü istiqamətinin* formalaşma mərhələsi hələ 1990-cı illərdən başlamışdır. Qeyd etmək lazımdır ki, məhz bu istiqamətdəki tədqiqatlarla Azərbaycanda vergilərin iqtisadi problemlərinin elmi-tədqiqi istiqamətinin əsası qoyulmuşdur. Həmin dövrdən başlayaraq o, Azərbaycan Respublikasında fiskal siyasət sahəsində aparılan elmi-tədqiqat işlərinin təşkilatçısı və rəhbəri olmuşdur.

Alınmış elmi-tədqiqat nəticələri müntəzəm olaraq müvafiq rəsmi qaydada əlaqədar idarəetmə orqanlarına təqdim olunmuş və qeyd olunmuş sahələrdə aparılan islahatlarda öz əksini tapmışdır. Eyni zamanda, yuxarıda qeyd olunan araşdırmaların nəticələri vergi sistemində istifadə olunan "Strateji araşdırmalar" moduluna daxil edilib və təyinatı üzrə istifadə olunur.

**Elmi-pedaqoji fəaliyyəti.** A.Musayev 1977-ci ildən başlayaraq Azərbaycan Dövlət Neft Akademiyasında, Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət İqtisad Universitetində, Azərbaycan Universiteti və bir çox digər özəl universitetlərdə mahir pedaqoq kimi həmişə tələbə və aspirantlara ən müxtəlif aktual fənlər və mövzular üzrə mühazirələr oxumuşdur. Eyni zamanda, o, həm də təhsil təşkilatçısı və təhsil sahəsində ekspert, komissiya üzvü kimi uğurlu fəaliyyət göstərmişdir.

Xatırlatmaq lazımdır ki, **A.Musayev Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 24 sentyabr 1994-cü il tarixli 212 saylı fərmanı ilə yaradılmış və 11 aprel 1998-ci ilə qədər fəaliyyət göstərmiş Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Ali Ekspert Komissiyasının üzvü kimi Azərbaycan Respublikasında özəl təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi və dövlət qeydiyyatı mexanizminin yaradılması və həyata keçirilməsi ilə bağlı işlərin təşkilində yaxından iştirak etmişdir.** Həmin müddətdə Dövlət Ali Ekspert Komissiyası tərəfindən 100-dən çox ali və orta özəl təhsil müəssisəsi heç bir sosial gərginliyə yol verilmədən ekspertizadan keçirilmiş və onlardan yalnız 13-nün fəaliyyətinə icazə verilmiş, yerdə qalanların fəaliyyətinin dayandırılması haqqında qərar çıxarılmışdır. Bununla da özəl təhsil sahəsində yaranmış böhranlı vəziyyətin nizamlanması təmin edilmişdir.

Həmin illərdə Akif müəllim müstəqil Azərbaycan dövlətində təhsilin, xüsusilə də özəl təhsilin təşkili və inkişafı sahəsində dövlət komissiyalarının üzvü olaraq, təhsilin, elmin inkişafının təmin edilməsi üçün normativ-hüquqi bazanın yaradılması, inkişaf proqramlarının hazırlanması üzrə işçi qrupların tərkibində çox səmərəli işlər görmüşdür.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 15 iyun 1999-cu il 168 saylı sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı"nın hazırlanmasında professor A.Musayevin fəaliyyəti xüsusilə təqdirəlayiqdir. Həmin islahat proqramı islahatların üç mərhələdə, o cümlədən birinci hazırlıq mərhələsində (1999-cu il), qısamüddətli perspektivi əhatə edən ikinci mərhələdə (2000-2003-cü illər) və üçüncü mərhələdə (2004-cü ildən sonrakı dövrə) aparılmasını nəzərdə tuturdu. İslahat proqramında Azərbaycan Respublikası vətəndaşlarının konstitusiyada müəyyən olunmuş təhsil almaq hüququnu təmin edən, bazar iqtisadiyyatının tələblərinə uyğun yeni təhsil sisteminin normativ-hüquqi, iqtisadi və informasiya bazasını yaratmaq üçün təşkilati işlərin aparılması, eləcə də onun infrastrukturu və kommunikasiya sisteminin müəyyən edilməsi, təhsil sahəsinin sosial iqtisadi stabilliyini təmin edən təxirəsalınmaz problemlərin həll olunması və geniş miqyaslı işlərin aparılması üçün təşkilati-hüquqi, kadr, maliyyə, maddi-texniki təminatını və yeni idarəetmə modelinin yaradılması və təhsilin perspektiv dövrdə (30 il və daha uzun müddətdə) inkişafının təmin edilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Dövlət İqtisad Universitetində Azərbaycanın vergi sistemi, bələdiyyələrin vergi xidməti və biznes strukturları üçün yüksəkixtisaslı mütəxəssis kadrların hazırlanması məqsədilə Vergilər Nazirliyinin təşəbbüsü, Təhsil Nazirliyinin vəsatəti ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 9 yanvar 1997-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı"na 30 iyun 2001-ci il tarixli 4 saylı qərarına əsasən dəyişiklik edilərək, bakalavr pilləsi üçün "Vergilər və vergitutma" və "Vergi işinin təşkili və idarə edilməsi", magistr təhsil pilləsi üçün müvafiq ixtisaslar daxil edilmişdir. Paralel olaraq həmin ildə respublikanın təhsil sistemində ilk dəfə Azərbaycan Dövlət İqtisad Universitetində "Vergi və vergiqoyma" kafedrası yaradılmış və professor A.Musayev onun rəhbəri seçilmişdir. Kafedranın "Vergilər və vergitutma" ixtisası üzrə 2003-cü ildə ilk buraxılışı olmuşdur. 2004-2005-ci tədris ilindən "Vergi işinin təşkili və idarə edilməsi" ixtisası üzrə tələbə qəbulu həyata keçirilir.

**AMEA-nın müxbir üzvü A.Musayev ADİU-nun, Bakı Dövlət Universitetinin, AMEA-nın Kibernetika İnstitutunun, Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun nəzdində fəaliyyət göstərən ixtisaslaşmış elmi şuraların, eləcə də son dövrlərdə AAK Rəyasət Heyətinin üzvü kimi, həmçinin "İqtisadiyyat" üzrə Respublika koordinasiya şurasının rəhbəri kimi, elmi-tədqiqat işlərinin ekspertizasında yaxından iştirak etməklə gənc alimlərin dissertasiya işlərinin müdafiələrində həmişə özünün prinsipial mövqeyi, obyektlivliyi və qayğıkeşliyi ilə seçilmişdir.** İndiyə qədər onlarla namizədlik və doktorluq dissertasiyalarına opponentlik etmiş və gənc alimlərin həyata vəsiqə almasına xeyir-dua vermişdir.

Professor A.Musayev yüksək ixtisaslı elmi kadrların hazırlanmasında da səmərəli fəaliyyət göstərir. Onun rəhbərliyi altında 35 nəfər, o cümlədən 4 nəfər xarici vətəndaş (İran İslam Respublikası, Türkiyə və Efiopiya) iqtisadiyyat üzrə fəlsəfə doktoru, 5 nəfər iqtisadiyyat üzrə elmlər doktoru dissertasiya müdafiə etmişdir. Hazırda bir neçə nəfərin doktorluq işinin elmi-məsləhətçisi və ya elmi rəhbəridir. AMEA-nın müxbir üzvü, professor A.Musayev Dövlət Ali Ekspert Komissiyasının üzvü, təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının işçi qrupunun, Təhsil Nazirliyinin Lisenziya Komissiyasının, Milli Məclisin Elm-Təhsil məsələləri Daimi Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupunun üzvü kimi təhsil sisteminin formalaşmasında, onun normativ-hüquqi bazasının yaradılmasında çox böyük işlər görmüşdür. Onun Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasının "İqtisadiyyat" bölməsinin rəhbəri kimi təhsil sisteminin tədris-metodiki təminatının yaradılması, dərslik, dərs vəsaiti, proqram və s.-lərin ekspertizası, qiymətləndirilməsi və Təhsil Nazirliyinin qrifinin verilməsi sahəsindəki fəaliyyəti xüsusilə təqdirəlayiqdir.

**Elmi-ictimai-inzibati fəaliyyəti.** Akif Musayev uzun müddət inzibati fəaliyyətlə məşğul olsa da, elmi fəaliyyətdən kənarda qalmamış və inzibati fəaliyyətinin elmi əsaslarını tədqiq etmişdir. Azərbaycanın vergi sistemində dövlət qulluğunda çalışdığı uzunmüddətli dövrdə A.Musayev bu sahədə beynəlxalq standartlara cavab verən normativ-hüquqi bazanın yaradılmasının, vergi ödəyicilərinə xidmət işinin təşkilinin fəal iştirakçısı olmuş, vergi orqanları əməkdaşlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsində, bu sahə üçün gənc kadrların yetişdirilməsində çox səmərəli fəaliyyət göstərmişdir. Onun təşəbbüsü və müəllifliyi ilə vergilər mövzusunda nəşr olunmuş onlarca elmi-metodiki və kütləvi vəsaitlər, dərsliklər, kitablar, yüzlərcə elmi-populyar məqalə-müsahibələr mühüm praktik əhəmiyyətinə görə Azərbaycanda vergi mədəniyyətinin formalaşmasına sanballı töhfə kimi qiymətləndirilməlidir.

Professor A.Musayev Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə yaradılmış Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyasının, Azərbaycan Respublikası hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli Sazişin icraçı komissiyasının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə yaradılmış Ümumdünya ticarət təşkilatına (ÜTT) üzv olmasına hazırlıq işləri üzrə Komissiyanın üzvü olmuşdur. O, "Vergilər" qəzetinin, "Azərbaycanın Vergi Xəbərləri", Azərbaycan Respublikası Auditorlar Palatasının "İqtisadiyyat və audit", Bakı Biznes Universitetinin "Audit", "Türk Bilimi", "Türk Dünyası Riyaziyyatçılar İttifaqının" elmi jurnallarının redaksiya heyətinin üzvü kimi iqtisadiyyat elmi sahəsində aparılan elmi-tədqiqat işlərinin ictimaiyyətə çatdırılması, iqtisadi biliklərin populyarlaşdırılması sahəsində də məqsədyönlü iş aparır.

AMEA-nın müxbir üzvü, professor A.Musayev məhsuldar tədqiqatçı-alim və mahir pedaqoq kimi Azərbaycanda vergilər sahəsində elmi məktəbin əsasını qoymuşdur. Onun elmi işləri Azərbaycanın vergi sisteminin, elmi əsaslarının işlənib hazırlanması, tədrisi, onun dünya təcrübəsinə uyğunlaşdırılması sahəsində çevik maliyyə və vergi siyasətinə əsaslanan iqtisadiyyatın idarəolunan ekoloji modelinin yaradılmasına və bu problemlərin həllində iqtisadi-riyazi üsul və modellərin tətbiqinə mühüm töhfə olmuşdur.

İqtisad elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü kimi Akif Musayevin yenilik axtarışları ona üç mühüm sahənin iqtisadi problemlərini tədqiq etməyə imkan vermişdir.

Akif müəllim elmi araşdırmalarında daim iqtisadiyyatın praktik əhəmiyyət daşıyan problemlərinin həllinə üstünlük vermiş, öz fundamental tədqiqatlarında dərin riyazi-məntiqi təfəkkürə əsaslanaraq, olduqca maraqlı və faydalı nəticələr əldə etmişdir.

Avtonəqliyyat, neft maşınqayırması və neft-qaz sənayesi sahələrində idarəetmənin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi, bu sahələrin iqtisadi problemlərinin həllində riyazi üsul və modellərin tətbiqi, həmçinin, müasir bazar münasibətləri şəraitində vergitutmanın nəzəri-metodoloji aspektlərinin işlənib hazırlanması və vergi siyasətinin strateji istiqamətlərinin müəyyənləşdirilməsi sanballı elmi tədqiqatlar kimi alimə böyük nüfuz və hörmət qazandırmışdır.

Akif müəllimi ölkəmizdə vergi siyasətinin iqtisadi problemlərinin araşdırılması kimi müasir elmi istiqamətin yaradıcısı hesab etmək olar. Azərbaycanın vergi sisteminin müasir dünya təcrübəsi əsasında təkmilləşdirilməsində, vergilər sahəsində beynəlxalq əlaqələrin möhkəmləndirilməsində A.Musayevin diqqətəlayiq xidmətləri vardır. Onun bu sahədə gördüyü çox gərəkli işlər vergilər sahəsində dövlət siyasətinin strateji istiqamətlərinin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynamışdır. AMEA-nın müxbir üzvü A.Musayev işlədiyi bütün təşkilatlarda kollektivin həmişə hörmətini qazanmış, fəaliyyəti ilə nümunə olmuş, dəfələrlə rəhbərliyin fəxri fərmanları, təşəkkürləri və qiymətli hədiyyələrilə mükafatlandırılmışdır. Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2007-ci il tarixli 1960 saylı sərəncamı ilə Musayev Akif Fərhad oğlu Azərbaycan Respublikasının vergi orqanlarında qulluq vəzifəsinin yerinə yetirilməsində fərqləndiyinə, ölkəmizin iqtisadi mənafeyinin qorunmasında xidmətinə görə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir. **O, həmçinin bir çox beynəlxalq təşkilat və institutların mükafatlarına, o cümlədən "Rəşadətli əməyə görə" IV dərəcəli Georgi medalına layiq görülmüş, adı 1993-2005-ci illər XII İnternational Akademik Rating "Golden Fortune" jurnalına daxil edilmişdir. Britaniyanın Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi və Amerikanın Şimali Karolina Bioqrafiya İnstitutunun idarə heyəti tərəfindən professor Musayev Akif Fərhad oğlu Dünya elm və təhsilinə töhfələrinə görə Beynəlxalq Şərəf Diplomuna və Görkəmli Lider Mükafatına layiq görülmüş və onun adı Beynəlxalq Görkəmli Şəxsiyyətlər kitabının 10-cu nəşrinə daxil edilmişdir.**

A.Musayev Gürcüstanın Qafqaz Universitetinin fəxri, Şimali Kipr Cümhuriyyəti Yaxın Doğu Universitetinin professorudur.

İnanırıq ki, AMEA-nın müxbir üzvü, professor Akif Musayevin qarşıdakı illərdə də elmi-pedaqoji fəaliyyəti Azərbaycan elm-təhsil və iqtisadi sisteminin inkişafına ciddi töhfələr verəcəkdir.

**Qorxmaz İMANOV,**
**i.e.d., professor,**
**AMEA-nın müxbir üzvü**
**Əlövsət ƏLİYEV,**
**i.e.n., dosent**

# "Gilan Tekstil"dən 6,6 milyon dollarlıq ixrac

"Gilan Tekstil Parkı" MMC cari ilin I yarısında 6,6 mln. dollar dəyərində məhsul ixrac edib. Bu barədə MMC-nin rəhbəri Mehriban Axundova bildirib.

"2016-cı il ərzində "Gilan Tekstil Parkı" ümumi dəyəri 5,6 mln. dollar olan məhsul ixrac etdiyi halda, cari ilin birinci yarısında şirkət tərəfindən 6,6 mln. dollarlıq məhsul ixrac olunub", - deyə M.Axundova bildirib.

Onun sözlərinə görə, Azərbaycanın ixracatının stimullaşdırılması nəticəsində "Gilan Tekstil Parkı"nın ixrac potensialı ikiqat artıb.

"Gilan Tekstil Parkı" 2012-ci ildən fəaliyyət göstərir. Şirkətin ticarət nişanı olan "Giltex" məhsulları 100% Azərbaycan pambığındandır.

# Azərbaycanın ixracı 36%-dən çox artıb



2017-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycanın ticarət əməliyyatlarının həcmi 8 milyard 678 milyon 422 min ABŞ dolları təşkil edib.

Ticarət əməliyyatlarının həcmi keçən ilin müvafiq dövrünə nisbətən 9.76% artmışdır.

İdxal əməliyyatları üzrə 3 milyard 409 milyon 673.65 min ABŞ dolları (keçən ilin müvafiq dövrünə nisbətən 15.72% azalmışdır), ixrac əməliyyatları üzrə 5 milyard 268 milyon 749.15 min ABŞ dolları (keçən ilin müvafiq dövrünə nisbətən 36.45% artmışdır) dövriyyə qeydə alınıb.

Birinci yarımildə saldo müsbət 1 milyard 859 milyon 75.5 min dollar olub.

İyunda ixrac 818 milyon 664.53 dollar, idxal 593 milyon 158.82 dollar, saldo isə 225 milyon 505.71 dollar olub. Mayda ixrac 902 milyon 694 min dollar, idxal isə 651 milyon 827.3 min dollar, saldo 250 milyon 866 min dollar olmuşdu. Beləliklə, iyunda idxal və ixrac may ayı ilə müqayisədə azalıb.

# SOCAR-ın gəlirləri 350 mln. manata çatıb

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) ötən il cəmi kapitalı 3 milyard 56 milyon manat, yaxud 20,86% artaraq 17 milyard 704 milyon manata çatıb.

Şirkətin audit hesabatına görə, SOCAR-ın aktivlərində də artım müşahidə edilib.

Belə ki, 2016-cı ildə şirkətin aktivləri 13 milyard 53 milyon manat, yaxud 32,67% aratKaraq 53 milyard 7 milyon manata çatıb.

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) 2015-ci ildəki 1 milyard 785 milyon manat zərərə qarşı ötən ili 350 milyon manat xalis mənfəətlə başa vurub.

Ötən il şirkətin gəlirləri 2015-ci ilə nisbətən 57% artaraq 51 milyard 905 milyon manata çatıb. Satışların maya dəyəri isə 59% artıb və 47 milyard 387 milyon manat olub. Beləliklə, ötən il SOCAR-ın ümumi mənfəəti 39% artaraq 4 milyard 518 milyon manat təşkil edib.

Şirkətin əməliyyat fəaliyyətindən mənfəəti 47% artaraq 1 milyard 896 milyon manat olub.

# Milli tekstil brendləri yaradılacaq



Sumqayıt Kimya Sənaye Parkı tərəfindən Mingəçevir Sənaye Parkına ilk rezident qəbul edilib.

İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, bu, "Mingəçevir Tekstil" MMC-dir.

MMC tərəfindən sənaye parkında Almaniya, İsveçrə, Yaponiya və Türkiyə texnologiyaları əsasında ildə 20 min ton iplik istehsal edəcək fabriklər inşa ediləcək.

Müəssisələrdə 550 iş yerinin açılması nəzərdə tutulur. Artıq fabriklərin inşasına başlanıb.

Belə müəssisələrin yaradılması yüngül sənaye sahəsində idxaldan asılılığın azaldılması, ixrac potensialının artırılması, milli tekstil brendlərin yaradılması, ixtisaslı kadrların hazırlanması və yeni iş yerlərinin açılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

# Maliyyə vasitəçiliyinin artırılmasına dair təkliflər müzakirə edilib

Azərbaycan Banklar Assosiasiyasının (ABA) Rəyasət Heyətinin iclasında bank sisteminin maliyyə vasitəçiliyinin artırılmasına dair verilmiş təkliflər müzakirə olunub.

ABA-dan AZƏRTAC-a bildiriblər ki, quruma üzv olan banklar tərəfindən hazırlanan təkliflər əsasən bank sisteminin sağlamlaşdırılmasına dövlət dəstəyi, eləcə də maliyyə bazarlarının fəaliyyətinin, hesablaşmaların və infrastrukturun təkmilləşdirilməsi ilə əlaqədar olub. Real sektorun kreditləşdirilməsinin bərpası və makroiqtisadi vəziyyətin sağlamlaşması trendinin gücləndirilməsi yönündə olan həll yolları isə əsas diqqət mərkəzində olan məsələlərdən olub. Həmçinin, iclasda hüquqi bazanın və tənzimləyici-normativ aktların təkmilləşdirilməsi istiqamətində təkliflər ətrafında da geniş fikir mübadiləsi aparılıb.



Qeyd edək ki, ABA 1990-cı ildə kommersiya bankları tərəfindən təsis edilib. ABA-nın yaradılmasında əsas məqsəd üzv təşkilatların maraqlarını qorumaq, onların müxtəlif növ işgüzar xidmətlərə olan ehtiyaclarının ödənilməsinə yardım göstərmək və fəaliyyətlərini əlaqələndirməkdən ibarət olub. Hazırda 30 bank və 2 bank olmayan kredit təşkilatı, eyni zamanda, "Azericard" MMC ABA-nın üzvüdür.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.**

# İlham Əliyev: "Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır"



Ölkənin iqtisadi və sosial sahələrinin kompleks şəkildə inkişafı məqsədilə ölkə prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "2009-2013-cü illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası yeni iş yerlərinin və müəssisələrin yaradılmasını təmin etməklə bərabər, kommunal, xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasını da şərait yaratmışdır. Müvafiq dövlət proqramlarına uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)", "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir.

Uğurla icra edilən müvafiq dövlət proqramlarının və həyata keçirilən digər mühüm tədbirlərin nəticəsidir ki, muxtar respublikada bütün makroiqtisadi göstəricilərin müsbət meyilliliyi təmin edilmiş, dinamik inkişaf qorunub saxlanılmışdır. 2017-ci ilin yanvar-may aylarında ümumi inkişafın əsas göstəricisi hesab edilən ümumi daxili məhsul istehsalının həcmi 927 milyon 928 min 400 manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz artaraq 2063 manata çatmışdır.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq muxtar respublika üzrə müəyyənləşdirilmiş tədbirlər sırasında ilk yeri bank və lizinq xidmətlərinin inkişaf etdirilməsi tutur. Bu istiqamətdə "Naxçıvanbank"ın Naxçıvan şəhərində, Şərur, Ordubad və Culfa rayonlarında yeni filialları istifadəyə verilmişdir. 1 iyun 2017-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 59780-ə çatmışdır ki, bunun da 50671-i və ya 84,8 faizi aktiv hesablardır. 2017-ci ilin yanvar-may aylarında açılmış 16434 bank hesabının 16382-si aktiv hesablar olmuşdur. Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 iyun 2017-ci il tarixə 1249-a çatmışdır.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının maşın və mexanizmlər ilə təchizatını yaxşılaşdırmaq məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2014-cü ildə 276, 2015-ci ildə 187, 2016-cı ildə 102, 2017-ci ilin ilk rübü ərzində 31 ədəd olmaqla, ümumilikdə, 596 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir.

Aqrar sahədə mövcud sığorta sisteminin təkmilləşdirilməsi istiqamətində isə 2014-cü ildə 1024, 2015-ci ildə 983, 2016-cı ildə 1358, 2017-ci ilin ilk rübü ərzində 631 vətəndaşın əkin sahəsi sığortalanmışdır.

Dövlət Proqramına uyğun olaraq, sənaye və kənd təsərrüfatı sahəsinin inkişafı tədbirlərinə uyğun olaraq ötən dövr ərzində 51 istehsal sahəsi yaradılmış, yeni istehsal sahələrinin yaradılması prosesi isə davam etdirilir. Zəruri infrastruktura malik ərazidə sənaye parkının yaradılması məqsədilə sənaye parkının nizamnaməsi hazırlanmışdır. Sənaye parkında 32 layihə üzrə istehsal sahələrinin yaradılmasına dair təkliflər hazırlanmış, həmçinin sənaye parkı üçün yerin seçilməsi və iqtisadi əsaslandırılması həyata keçirilmişdir. Muxtar respublikada dağ-mədən sənaye müəssisələrinin fəaliyyətinin bərpası, yeni müəssisələrin yaradılması məqsədilə Ordubad rayonunun Piyazbaşı, Ağyurd, Şəkərdərə və Kələki filiz yataqlarında geoloji kəşfiyyat işlərinin aparılması və ehtiyatların hesablanması üzrə işlər yekunlaşdırılmışdır.

Kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü və emalı sahəsində sahibkarlıq fəaliyyətinin dəstəklənməsi istiqamətində kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin göstərilməsi, onların gübrə və texnika ilə təminatının yaxşılaşdırılması, subsidiyaların və güzəştli şərtlərlə kreditlərin verilməsi prosesi davam etdirilmişdir. Dövlət Proqramının icrası istiqamətində ötən dövr ərzində muxtar respublikada 15 heyvandarlıq, 5 quşçuluq, 16 istixana təsərrüfatı, ümumi tutumu 2330 ton olan 9 soyuducu anbar yaradılmış, 7 heyvandarlıq və 1 quşçuluq təsərrüfatının genişləndirilməsi başa çatdırılmışdır. 4 heyvandarlıq və 2 quşçuluq təsərrüfatının yaradılması prosesi isə davam etdirilir.

*Bu gün Azərbaycan dünya miqyasında seçilmiş ölkələrdəndir, ləyaqətli ölkədir, müstəqil siyasət aparan ölkədir. Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır və güclü iqtisadiyyatdır. Çünki əgər biz iqtisadi müstəqilliyi təmin etməsəydik, başqa ölkələrdən asılı vəziyyətə düşə bilərdik və düşəcəkdik.*

*İlham Əliyev*

Muxtar respublikada üzümçülük plantasiyalarının salınması, gülçülük təsərrüfatlarının yaradılması və baramaçılığın bərpa edilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilməkdədir.

Balıqçılığın inkişaf etdirilməsi və yeni təsərrüfatların yaradılması istiqamətində Naxçıvan şəhərində, Şərur rayonunun Aşağı Yaycı kəndində balıqçılıq təsərrüfatları istifadəyə verilmişdir. Kəngərli rayonunda "Asnı" balıqçılıq təsərrüfatında inkubasiya sexi quraşdırılmışdır. Balıqlardan alınan kürü həmin sexdə inkubasiya edilərək, körpə balıqlar əldə edilir və yetişdirilərək digər balıqçılıq təsərrüfatlarına satılır.

Yüksək reproduksiyalı, məhsuldar toxumla təminatı yaxşılaşdırmaq məqsədilə toxumçuluq təsərrüfatlarının genişləndirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleks inşa olunmuşdur. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında imzalanmış texniki-iqtisadi əməkdaşlıq sazişi çərçivəsində ayrılan qrant hesabına Naxçıvan Muxtar Respublikası "Bərəkət Buğda Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin toxumçuluq təsərrüfatına yeni kənd təsərrüfatı texnikaları və toxumçuluq laboratoriyası avadanlıqları təqdim olunmuşdur. Təqdim olunan 5 kombayn, 5 traktor, hər birinin tutumu 10 ton olan 4 yük maşını, 5 toxumsəpən, 5 filtr təmizləyici, avtobus, hidravlik ekskavator, yanacaq tankeri, toxumörtən, diskli kotan və dırmıqlar, 5 gübrəsəpən, 5 toxumtəmizləyən, 2 elevator, 80 tonluq elektron tərəzi, eləcə də digər maşın və avadanlıqlar yüksək iş imkanlarına malikdir. Yeni alınan elektro-termostatik inkubator, isitmə və qurutma sobası, mikroskop və digər avadanlıqlar hesabına toxumçuluq laboratoriyasında yüksək məhsuldarlığa malik, xəstəliyə, ziyanvericilərə və yerli iqlim şəraitinə dözümlü toxum sortlarının yetişdirilməsi nəzərdə tutulur. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı istiqamətində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2014-cü ildən 1 aprel 2017-ci il tarixədək 637 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq, muxtar respublikaya gətirilmişdir.

Biznes mühitinin yaxşılaşdırılması və bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində 2014-cü ildən 1 aprel 2017-ci il tarixədək muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün verilən kreditlərin həcmi 90 milyon 826 min 600 manat təşkil etmişdir. Bu kreditlərdən 62 milyon 947 min 600 manatı fərdi sahibkarlığın inkişafına, 27 milyon 879 min manatı isə yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə sərf olunmuşdur.

Ümumilikdə, Naxçıvan Muxtar Respublikasında 2017-ci ilin yanvar-may ayları ərzində ərzində sənaye üzrə 419 milyon 860 min manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 1,1 faiz üstələmişdir. Kənd təsərrüfatı üzrə məhsul istehsalı yanvar-may aylarında 49 milyon 552 min 400 manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 2,9 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublika üzrə diri çəkidə 8531,3 ton ət, 35090 ton süd istehsal edilmiş, bir il öncəyə nisbətdə ət istehsalı 2,2 faiz, süd istehsalı 1,7 faiz artmışdır.

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2017-ci ilin yanvar-may aylarında 135 milyon 176 min 800 ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 1,2 faiz artaraq 126 milyon 986 min 500 ABŞ dolları, idxalın həcmi 46,2 faiz azalaraq 8 milyon 190 min 300 ABŞ dolları təşkil etmiş, 118 milyon 796 min 200 ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.

Keyfiyyətə nəzarət sisteminin təkmilləşdirilməsi məqsədilə "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin mərkəzi qida sınaq laboratoriyası beynəlxalq akkreditasiyadan keçirilmiş və cəmiyyət tərəfindən verilmiş keyfiyyət sertifikatları ilə ərzaq məhsullarının maneəsiz xarici bazarlara çıxarılmasına şərait yaradılmışdır. Akkreditasiya sisteminə daxil olan digər laboratoriyaların beynəlxalq akkreditasiyadan keçirilməsi üçün maarifləndirmə işləri aparılır.

**Mətanət Hüseynova**

# Число пользователей "Bookmate" превысило 15000

Интерес к проекту "Bookmate", представленному ООО Azercell Telekom для книголюбов, постепенно растет. Число активных абонентов, пользующихся уникальной услугой, представленной компанией, превысило 15000. В то же время сформирована база более 3000 пользователей, пользующихся бесплатным испытательным сроком.

Учитывая интерес к "Bookmate", компания, еще более усовершенствовав, представила услугу своим абонентам. Теперь в библиотеке в распоряжение пользователей предоставлен еще более удобный и точный поиск книг. Кроме того в библиотеке имеются краткие информации об авторах книг.

Еще одно новшество связано непосредственно с читателем. Отныне каждый читатель может сравнивать число книг и страниц с результатами друзей. Доводим до вашего сведения, что в мобильную библиотеку поступили новые произведения таких авторов как Анар Гасымов, Гурбан Саид, Патрик Зюскинд, Габриэль Гарсиа Маркес, Кобо Абэ, Ошо, Джоджо Мойес, Джим Рон, Амели Нотомб, Генри Белль.

Для информации отметим, что "Bookmate" - мобильное приложение, созданное для чтения тысячи книг на электронных устройствах. Данная услуга создает наиболее удобный способ для поиска и чтения интересных произведений на телефоне, планшете или компьютере. Мобильная библиотека, представленная Azercell по скидочной цене, открывает доступ к более 800 000 наименований. Всего за 3,50 AZN в месяц пользователи получают доступ не только к зарубежной литературе, но и к большому списку произведений азербайджанских авторов, размещенных в мобильной библиотеке "Bookmate". Также стоит отметить, что при скачивании Bookmate из Apple Store или Google Play, абонент платит 11.80 AZN, а при использовании Azercell плата за пользование составляет всего 3.50 AZN, что означает около 70% экономии для абонентов Azercell. Кстати, каждый новый абонент, загрузивший приложение "Bookmate", получает возможность бесплатного использования "Bookmate" в течение одной недели. Отметим, что, оплачивая ежемесячную абонентскую плату со своего баланса, пользователи могут очень удобно и безотлагательно воспользоваться электронной библиотекой, не производя каких-либо дополнительных оплат с банковской карточки. Одним из самых важных преимуществ услуги является то, что библиотека "Bookmate" не требует постоянной связи с интернетом. Так как загруженная книга доступна в любой момент, в любом месте, например, ее можно прочитать в метро или в самолете. Кроме того, не имеет значения, какое устройство находится под рукой, - смартфон, планшет или компьютер. Вы загружаете книгу не на устройство, а добавляете в свою личную библиотеку.




# Возьмите кредит от Unibank при помощи WhatsApp




Теперь, вы сможете с легкостью подать заявку на кредит в любом месте. Эту возможность вам предоставляет новая услуга Unibank - UniWhatsApp кредит.

Как говорится в сообщении банка, распространенном в среду, для подачи заявки следует лишь через программу WhatsApp отправить имя, фамилию, отчество и контактный номер на номер 050 77 88 117. Ответив на вопросы оператора, вы сможете за короткое время получить информацию об условиях и возможности получения кредита. Услуга UniWhatsApp кредит позволяет взять кредит без потери времени и с легкостью.

Заказать кредит можно и через сайт www.unibank.az , и через Unibank Mobile.

На сегодняшний день, являясь одним из ведущих банков страны, Unibank обладает широкой филиальной сетью, как в столице, так и в регионах.

Филиалы Unibank функционируют в будние дни с 09:00 до 17:00.

За более подробной информацией вы можете обращаться по телефону (012) 117, на сайт банка по адресу www.unibank.az, либо на официальные страницы банка в Фейсбук и Твиттер. Unibank, созданный, в результате объединения двух передовых коммерческих банков, «MBANK» (1992 года) и «PROMTEXBANK» (1994 года), в 2002 году, является одним из крупнейших финансовых организаций страны. Согласно своим финансовым показателям, Unibank занимает лидирующие позиции в списке банков страны.

Unibank оказывает услуги около 950 тыс. различным клиентам, как корпоративным, так и частным. В списке акционеров банка находятся такие крупные мировые финансовые институты, как Европейский банк развития и реконструкции и Немецкая инвестиционная корпорация (DEG).

# Kapital Bank предлагает клиентам бесплатные платежные карты




В целях повышения качественного уровня обслуживания клиентов Kapital Bank продолжает внедрять целый ряд инновационных услуг. Как говорится в сообщении банка, распространенном в среду, Kapital Bank упростил условия по платежным картам и предлагает их клиентам на бесплатной основе.

Таким образом, при минимальном первоначальном взносе 20 манатов клиент становится владельцем карты Visa от Kapital Bank, сроком на 2 года. Первоначальная сумма может быть использована владельцем карты в любое время.

Kapital Bank является членом международной платежной системы Visa International. Карты Visa можно заказать во всех филиалах Kapital Bank, или онлайн на корпоративном сайте банка. Kapital Bank предлагает клиентам карты в валютах: манат, доллары США и евро, сроком действия на 1, 2 и 3 года.

Следует отметить, на данный момент Kapital Bank имеет около трех миллионов держателей платежных карт. Безостановочная, стабильная работа процессингового центра в течение недели, а также постоянное инновационное развитие центра является существенным преимуществом Kapital Bank, который имеет свыше 600 банкоматов и 9000 POS-терминалов по всей стране.

Kapital Bank оказывает услуги населению в 92 филиалах и семи отделениях по всей стране, имея самую широкую сеть обслуживания. Более подробную информацию о продуктах и услугах банка можно получить на сайте www.kapitalbank.az, страницах банка в социальных сетях, а также, позвонив в центр обслуживания клиентов по номеру 196.

# Кандидаты, отобранные для участия в программе «Smart Start», начинают стажировку в компании Bakcell

SMART START®

Молодые люди, успешно прошедшие процесс отбора, в рамках программы стажировки «Smart Start», организованной Первым Оператором Мобильной Связи и Ведущим Провайдером Мобильного Интернета в Азербайджане – компанией Bakcell, приступают к стажировке в отделах Продаж и Маркетинга компании.

В ходе программы стажировки, участники приобретут соответствующие знания и навыки, работая под руководством кураторов, назначенных из числа ведущих специалистов компании, изучат общую структуру и принципы работы компании, а также примут участие в тренингах по планированию развития карьеры, бизнес этике, эффективному управлению временем, эффективной коммуникации, самореализации, технике безопасности и защите окружающей среды, охране здоровья и другим областям. Программа стажировки продлится 2 месяца. Компания Bakcell предоставит стажерам соответствующую стипендию на ежедневные транспортные расходы и питание. По окончании программы стажировки, все участники получат сертификаты, подтверждающие их участие в проекте. Нужно отметить, что в этом году, более 1000 молодых людей проявили интерес и подали заявку для участия в программе Smart Start, 188 из которых прошли первый этап отбора и были приглашены на собеседования в Отдел Кадров. По итогам собеседований, 42 кандидата были приглашены на собеседования, непосредственно с кураторами из отделов Продаж и Маркетинга компании. Только 8 финалистов были отобраны для участия в стажировке.

Основной целью данной программы, предназначенной для студентов и выпускников, является предоставление молодым людям в возрасте 18-25 лет, желающим начать профессиональную карьеру, возможности ознакомиться с условиями труда в одной из крупнейших компаний Азербайджана, а также приобрести ценный практический опыт и развить в себе качества, необходимые для готовности к работе.

Отметим, что 12 выпускников программы Smart Start были приняты на работу в Bakcell, в то время как остальные участники программы считаются потенциальными кандидатами на позиции, которые будут объявлены компанией в будущем.

# Caspian European Club и Caspian Energy принимают участие в WORLD PETROLEUM CONGRESS ISTANBUL 2017

CASPIAN ENERGY™
CASPIAN EUROPEAN CLUB
CASPIAN AMERICAN CLUB

Делегация Caspian European Club и Caspian Energy International Media Group принимает участие в работе XXII Мирового конгресса по нефтяной и газовой промышленности, стенд Caspian Energy также будет представлен на выставке (22nd World Petroleum Congress and Exhibition).

Об этом АЗЕРТАДЖ сообщили в Caspian European Club.

Caspian Energy International Media Group является медиа-партнером Мирового конгресса по нефтяной и газовой промышленности (22nd WORLD PETROLEUM CONGRESS ISTANBUL 2017), который проходит в Стамбуле с 9 по 13 июля.

Среди приглашенных спикеров конференции - госсекретарь США Рекс Тиллерсон, президент SOCAR Ровнаг Абдуллаев, министр энергетики России Александр Новак, генеральный директор Total Патрик Пуянне, министр энергетики Турции Берат Албайрак, исполнительный директор BP Боб Дадли, глава компании Saudi Aramco Амин Насер, глава Oil and Gas Credit Suisse Осман Абиб, министр нефти Бахрейна шейх Мухаммед бен Халифа бен Ахмед Аль Халифа, генеральный секретарь ОПЕК Мохаммед Сануси Баркиндо, главный исполнительный директор Shell Бен ван Беерден, исполнительный директор МЭА Фатих Бирол, генеральный директор Woodside Питер Колмен и другие.

Также среди выступающих будут руководители и представители таких компаний, как Shell, Kuwait Petroleum, Total, Saudi Aramco, Barra Energia SA, Petronas, NIOC, ExxonMobil Gas, BP, ENGIE, Halliburton, Schlumberger и др.

Журнал Caspian Energy распространяется в 50 странах мира. На протяжении 18 лет в журнале публикуются интервью президентов и премьер-министров стран СНГ и ЕС, а также глав авторитетных международных организаций, крупных транснациональных компаний, обзоры и аналитические материалы ведущих экспертов.

По различным оценкам журнал Caspian Energy входит в пятерку ведущих изданий Каспийско-Черноморского региона и является ориентиром для многих инвесторов при изучении направления деятельности в Каспийско-Черноморском и Балтийском регионах.

# REKLAM MÜRACİƏTİNİN YARADILMASININ ƏSAS QAYDALARI VƏ MƏRHƏLƏLƏRİ

**(əvvəli ötən sayımızda)**

Reklamın məqsədindən informasiyanın mahiyyəti, elanın mətn və təsvir elementləri asılıdır. Belə ki, əgər məqsəd potensial alıcının ticarət markasının yeni adını yadda saxlamağa nail olmaqdırsa, onda reklamda bu adın bir neçə dəfə təkrar olunması arzuolunandır. Məsələn, televiziya reklam çarxında çətin "Carlsberg" pivəsinin adının tələffüz edilməsi və yadda saxlanması üçün insan quşa bu sözü təkrar etməyi öyrədir.

Əgər reklamın qarşısında digər məqsəd varsa (satış yerlərində əmtəənin tanınmasına nail olmaq), onda onun fotosunu, yəni qablaşmasını göstərirlər. Əgər insanların şüurunda markanın vizual surətini tətbiq etmək lazımdırsa, firma nişanına vurğu edilir.

Reklamın məqsədi istehlakçıları markanın üstünlüyünə inandırmaq və ya istehlakçıların diqqətini rəqiblərin markasından özlərinin xeyirinə cəlb etmək olduğu zaman müqayisəli reklamdan istifadə edirlər. Rəqabət aparan markalarla müqayisədə əmtəənin xeyirinə dəlillər gətirilir, üstünlüklərin sübut edilməsi və təsdiqlənməsinə xüsusi olaraq diqqət yetirilir.

Əgər reklamın məqsədi mövcud olan istehlakçılarla məhsulun istehlakının artmasını stimullaşdırmaqdırsa, onda bu reklam başqa cür qurulur. Məsələn, xüsusi dəlillərin köməyilə gündə bir yox, üç dəfə hansısa diş məcunu ilə dişi təmizləməyə, yaxud yalnız səhər yeməyindən sonra yox, gün ərzində şirə içməyə insanları inandırmağa səy göstərmək olar.

Yetkinlik mərhələsində, yəni reklamın məqsədi məşhur markanı xatırlatmaq olduğu zaman lakonik reklamdan istifadə olunur. Belə reklam çox zaman informasiya reklamının əsas fraqmentləri kimi təqdim edilir.

Reklamı tərtib edən onun məqsədini dəqiq izah edərək, yaradılması üçün bütün lazımi informasiyanı tapmalı, reklam obyektini, mümkün alqı motivlərini, rəqiblərin hərəkətlərini və reklamını öyrənməli, reklamın yerləşdiyi yeri aydınlaşdırmalıdır. Tədqiqatlar nəticəsində yaradıcı reklam strategiyası, elanın ideyası, üslubu və tonu müəyyən edilir.

Sonra elanın strukturu ölçülüb biçilir və əsas mətn və təsviri elementlər yaradılır, eləcə də onların komponovkası ətraflı düşünülür (kompozisiyası müəyyən olunur).

Reklam ideyası dil və üslublar vasitəsilə ifadə olunmalıdır. Reklam elanını təşkil edən struktur elementlərini müvafiq olaraq iki qrupa bölmək olar:

- mətn;
- təsvir.

Reklam elanın mətn elementlərinə aiddir:

- sərlövhə;
- sloqan;
- giriş hissəsi;
- informasiya bloku;
- sorğu məlumatı;
- exo (əks-səda) ifadəsi.

Əsas təsviri elementlərə aiddir:

- illüstrasiya;
- şriftlər;
- rəng;
- cırıqlar və digər qrafik elementlər;
- "hava" (boş yerlər);
- elanın forması.

Elanda bu elementlərin hər biri öz vəzifələrini yerinə yetirir, belə ki, reklamda yaradıcılıq konkret kommunikativ məqsədlərə çox sərt tabe olmalıdır.

Reklam müraciəti, şübhəsiz, reklam prosesinin mərkəzi elementi kimi çıxış edir. Məhz reklam müraciəti onun məqsədli auditoriyasının kommunikatoru, potensial alıcısıdır. Reklam müraciətində reklam kommunikasiyasının əks elementləri fokusa yığılır. Onların sırasına kommunikasiya ideyası və istifadə olunan kodlar daxildir ki, onlar da həmin ideyanın qavranılmasına səbəb olur. İstifadəçinin iştirakı (xüsusilə, əgər o, "firmanın simasıdırsa") bəzən müraciətin özünün ayrılmaz hissəsinə çevrilir. Məqsədli auditoriyanın əsas xarakteristikası ilə məcmu halda reklam göndərişinin xarakteri bir çox hallarda ən səmərəli kommunikasiya kanalının seçimini müəyyən edir. Nəhayət, reklam müraciətini reklam fəaliyyətinin məqsədlərinə nail olmağın başlıca vasitəsi, əsas aləti kimi nəzərdən keçirmək olar.

Reklam müraciətini kommunikator tərəfdən reklamı qəbul edənə göstərilən informasiya və emosional təsirin bilavasitə daşıyıcısı olan reklam kommunikasiyasının elementi kimi müəyyən etmək olar. Bu göndəriş konkret formaya (mətn, vizual, simvolik formaya) malikdir və konkret kommunikasiya kanalının köməyilə ünvan sahibinə çatır.

Reklam göndərişlərinin işlənib hazırlanması prosesinin qısa xarakteristikasını nəzərdən keçirək.

Bu prosesin ən vacib xarakteristikası onun yaradıcı xarakteridir. Özü də bu xarakteristikanın özü əvvəla praktiklərin slenqində (ingilis sözü "sleng" - müxtəlif insan qruplarında işlədilən, artıq mövcud olan sözlərin yeni mənalarının və ya yeni sözlərin dəstidir), sonra isə xüsusi ədəbiyyatda kerativ adını almışdır (ing. "creative" – "yaradıcı"). Bu zaman kreativlik reklam mətnlərinin tərtib olunmasının və bədii işlərin yerinə yetirilməsinə görə reklam agentliyinin funksiyası kimi çıxış edir. (davamı gələn saymızda)

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# Azərbaycanda istehsal edilən velosipedlərin təqdimatı

İyulun 6-da Bakıda "Park Bulvar" ticarət mərkəzində İmayıllı Velosiped Zavodunun 50-yə yaxın velosiped modelinin təqdimatı keçirilib.

Tədbirin açılışında bildirilib ki, "İSMA Bike" Azərbaycanın ilk velosiped markasıdır. "İSMA Bike" velosipedlərinin istehsal olunduğu İmayıllı Velosiped Zavodu bir neçə aydır istehsala başlayıb.

İsmayıllı Velosiped Zavodu Azərbaycanın iri şirkətlər qrupundan olan "Synergy Group"a məxsusdur. "Synergy Group" MMC-nin İcraçı direktoru İsmayıl Süleymanov çıxış edərək bildirdi ki, 2010-cu ildən fəaliyyət göstərən "Synergy Group" ölkənin müxtəlif sektorlarına iri investisiyalar yatırmışdır. Holdinqin istehsal etdiyi kənd təsərrüfatı məhsulları, tikinti materialları və spirtli içkilər bir neçə ölkəyə ixrac edilməkdədir.

Azərbaycan Velosiped İdmanı Federasiyasının birinci vitse-prezidenti Sahib Ələkbərov bildirdi ki, sağlam həyatın əhəmiyyəti başa düşüldükcə velosiped sürənlərin sayı günü-gündən çoxalır. Gələcəkdə daxili bazarda velosipedlərə tələbat daha da artacaqdır:

"Hazırda İsmayıllı Velosiped Zavodunun istehsal gücü 30 min ədəd velosipeddir. Azərbaycanın ildə 100 min ədəd velosipedə tələbatı var. Mən hesab edirəm ki, zavodun istehsal gücü artırılmalıdır və ən geci 2 ilə buna nail olacağıq. Gələcəkdə zavodda əlil arabaları daxil digər məhsullar da istehsal olunacaqdır. Velosiped İdmanı Federasiyası zavodun fəaliyyətinə öz dəstəyini verəcəkdir".

Tədbirin aparıcısı bildirdi ki, artıq zavodun məhsullarına sifarişlər var. Məsələn, dünyanın ən məşhur brendlərindən biri olan "Coca Cola" şirkətilə İsmayıllı Velosiped Zavodu arasında 200 ədəd velosipedin alınması ilə bağlı müqavilə imzalanıb. İş adamları da İsmayıllı Velosiped Zavodunun məhsullarının satışına maraq göstərirlər və hazırda onlarla danışıqlar aparılır.

İsmayıllı Velosiped Zavodunun direktoru Elçin Qəhrəmanov çıxış edərək bildirdi ki, təqdimatın keçirilməsində məqsəd insanların fikirlərini öyrənməkdir: "Biz istəyirik ki, insanlar nümayiş etdirdiyimiz bu modellərə qiymət versinlər və biz də istehsal fəaliyyətimizi onların istəklərinə uyğun quraq".

Elçin Qəhrəmanov qeyd etdi ki, 30 nəfərin çalışdığı zavod Bolqarıstan, Danimarka, Niderland, Çin və Türkiyə istehsalı olan avadanlıqlarla təchiz edilib. Ehtiyat hissələri Tayvan, Malayziya, Bolqarıstan və Yaponiyadan alınır: "Dünyadakı velosiped brendlərinin 80%-i Yaponiyanın "Shimano" şirkətinin ehtiyat hissələrindən istifadə edir. Biz də yüksək keyfiyyətli bu ehtiyat hissələrindən istifadə edək.

Zavodun direktoru sonda qeyd etdi ki, Azərbaycan bazarında ucuz qiymətə satılan xarici istehsal velosipedlər keyfiyyətsizdir. Tezliklə keyfiyyətsiz velosiped idxalının qarşısı alınmalıdır.

# Azercell-dən yeni iPhone 7 və iPhone 6S Plus kampaniyaları

Azercell Telekom MMC yay aylarında da müştərilərini sərfəli kampaniyalarla sevindirməyə davam edir. Belə ki, 11.07.2017-ci il tarixindən etibarən yeni kampaniya çərçivəsində abunəçilər iPhone 7 128GB və iPhone 6S Plus 32GB kimi 4G-dəstəkli smartfonlarını aylıq uyğun olaraq cəmi 99AZN və 85AZN-dən başlayan ödənişlə əldə edə bilərlər. Bu kampaniyaya qoşulmaqla abunəçilər smartfonlarla yanaşı, 5GB-dan başlayan internet paketlərindən istifadə və ölkədaxilində sərfəli zəng etmək (1dəq=0.06AZN) imkanı qazanırlar. Kampaniyaya qoşulmaq üçün abunəçilər Azercell Müştəri Xidmətləri Ofislərinə yaxınlaşıb mövcud təkliflərdən birini seçə bilərlər. Azercell-in bu yay abunəçilərinə təqdim etdiyi kampaniyalara qoşulun, yeni smartfon, mobil inernet və sərfəli danışıq imkanı qazanın.




# Goldman: Neft 40 dollardan aşağı düşə bilər

ABŞ-ın iri investisiya bankı "Goldman Sachs Group Inc."-ə görə, OPEC qiymətlərin yüksəlməsi üçün hasilatı daha da azaltmalıdır. "Goldman"ın 10 iyul tarixli hesabatında, OPEC-in investorları təəccübləndirmək üçün hasilatı daha da azaltmasının lazım olduğu bildirilib. Yalnız belə bir addım qlobal təklif artığını və ehtiyatları azalda bilər.

Bankın analitiklərinin qələmə aldığı hesabatda OPEC-dən belə bir həmlə gəlmədən və neft bazalarındakı ehtiyatlar azalmadan qiymətlərin 40 dollardan aşağı düşəcəyi qeyd edilib.



# Bakcell yeni təlimlər vasitəsilə "AppLab" iştirakçılarının bacarıqlarını zənginləşdirir

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti "AppLab" proqramının iştirakçıları üçün onların davamlı inkişafına istiqamətlənən treninqlər keçirir. Şirkətin inkubasiya mərkəzində 7 layihə üzrə fəaliyyət göstərən qrup üzvləri aşağıda göstərilən mövzular üzrə keçirilən treninqlərdə iştirak edərək öz bacarıqlarını artıracaqlar:

- Pitçinq üzrə master-klass
- Trend konsepsiyası üzrə intensiv təlim
- Block-chains giriş intensiv təlim
- İnvestor münasibətlərinin inkişaf Etdirilməsi üzrə intensiv təlim
- Məhsuldar komandanın saxlanması üzrə təlim
- Strategiyanın inkilşaf etdirilməsi və kommersiyalaşdırılması intensiv təlim

Qeyd olunan treninqlərdən hər biri əsas nəzəri hissədən və konkret halların təhlilindən ("case study") ibarət olacaq. Treninqlərin müddəti ümumilikdə 28 saatdır.

Treninqlər ölkə daxilində təlim, qiymətləndirmə və məsləhət xidmətləri sahəsində fəaliyyət göstərən aparıcı təchizatçılardan biri olan "CAC Training Center" şirkəti ilə birgə təşkil olunur.

"AppLab" regional səviyyədə ideyaların, mobil tətbiqlərin və texnologiyaların pilot variantından istifadəyə tam hazır məhsul variantınadək çatdırılmasında seçilmiş developerlərə kömək etmək üçün nəzərdə tutulan sürətləndirilmiş icra moduludur. Layihə çərçivəsində gənc proqramçılar Üzeyir Hacıbəyov küç. 48, 3-cü mərtəbə ünvanında yerləşən "AppLab" ofisindən (Sahil parkının yaxınlığında) istifadə edib, pulsuz internet, ofis və treninq üçün nəzərdə tutulmuş məkandan və mühitdən, eyni zamanda, məhsulları sınamaq üçün ən müasir cihazlardan yararlana bilirlər. "Bakcell"in Qualcomm şirkətinin və "AppLab" proqramının digər partnyorlarının nümayəndələrindən ibarət olan xüsusi ekspertlər qrupu gənc proqramçıları yerli və beynəlxalq bazarların tələblərinə hədəflənmiş yeni məhsul və ya xidmətlərin pilot variantını tərtib etmək və həyata keçirmək üçün tələb olunan araşdırmalar və məsləhətlərlə təmin edirlər.




Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Mərkəzi Neftçilər Xəstəxanasının qocaman həkim-oftalmoloqu
**FƏXRİYYƏ GÜLMİRZƏ QIZI CAVADOVANIN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Milli Məclisin deputatı Şəmsəddin Hacıyevə əzizləri
**RÖVŞƏN və ÜZEYİR HACIYEVLƏRİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Milli Məclisin deputatı Şəmsəddin Hacıyevə əzizləri
**RÖVŞƏN və ÜZEYİR HACIYEVLƏRİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Behbud müəllimə və ailəsinə əzizləri
**RÖVŞƏN və ÜZEYİR HACIYEVLƏRİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500